

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET  № 102 (7357) / Şənbə, 8 iyun 2019-cu il




Prezident İlham Əliyev:

# Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir

⇨ Bax: səh. 2

⇧ Bax: səh. 3



## Dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyimizin banisi, xilaskarıdır

9 İYUN 1993-CÜ İLDƏ BAKIYA QAYIDIŞI İLƏ SUVERENLİYİMİZİ ƏBƏDİLƏŞDİRƏN ULU ÖNDƏR MÜASİR AZƏRBAYCANIN MÜƏLLİFİ OLDUĞUNU ƏMƏLLƏRİ İLƏ TƏSDİQLƏDİ

## Naxçıvanda müasir ağacyetişdirmə sahəsi - "İqlim otağı" fəaliyyətə başlayıb



⇨ Bax: səh. 4

⇧ Bax: səh. 5



### Bakı Ali Neft Məktəbinin daha 4 tələbəsi İtaliyanın nüfuzlu şirkətində işə başlayır

Hökumət başçılarının Aşqabad sammiti:

### MDB-nin perspektivinin müzakirəsi

⇧ Bax: səh. 6



⇧ Bax: səh. 11




### Qobustan Regional Təlim Mərkəzi və Kadr Hazırlığının Təşkili Mərkəzinə şagird qəbulu üçün müsabiqə keçirilir


11 | SOCAR və BP birgə neft-kimya kompleksinin tikintisini planlaşdırır

14 | Radikalların birlik sevdası
Yaxud "suda boğulan saman çöpündən yapışar"

16 | İşdə necə pozitiv ola bilərik?

# *Prezident İlham Əliyev:* Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir

## Müstəqillik tariximizin məhz 1918-ci ildən başlandığını önə çəkən dövlətimizin başçısı bildirir ki, müstəqillik ən böyük sərvətimiz, nemətimiz, xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir

**"1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır."**



Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri ilə Azərbaycanın müstəqillik tarixinin məhz 1918-ci ildən başlandığına diqqəti yönəldir, eyni zamanda, ulu öndər Heydər Əliyevin aforizmə çevrilən "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisini bir daha xatırladır. Cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması da dövlətçilik ənənələrinə sadiqlik kimi dəyərləndirilərək, il çərçivəsində həyata keçirilən tədbirlər tarixi paralellər fonunda Azərbaycanın müstəqillik tarixinin ardıcıl şəkildə vərəqlənməsinə geniş imkanlar açdı.

Qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi, Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasətin nəticəsində özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda "1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur" söyləyən dövlətimizin başçısı İlham Əliyev qeyd etmişdir ki, əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Ona görə Azərbaycan xalqı haqlı olaraq ulu öndər Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Azərbaycanın müstəqilliyinin ilk illərində yaşadıqları hər kəsə məlumdur. Xaos, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül, vətəndaş qarşıdurması, Azərbaycanın bir dövlət olaraq öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanması həmin illərin xarakterik xüsusiyyətləri idi. Azərbaycan dövlətini, xalqını bu çətin vəziyyətdən ancaq və ancaq ulu öndər Heydər Əliyev xilas edə bilərdi. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparıldı, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edildi. Bazar iqtisadiyyatına keçid məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir. 1994-cü il sentyabrın 20-də Ümummilli Liderin gərgin səyləri nəticəsində "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasını sürətləndirdi, davamlı inkişafına yol açdı. Məhz bu yolun uğurlu olmasının nəticəsidir ki, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı. 2018-ci ildə çoxtərəfli əməkdaşlığın bariz nümunəsi olan Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu mühüm addım bu günə qədər görülən işlərin zirvəsidir. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin 2006 və 2007-ci illərdə istifadəyə verilməsi əməkdaşlığın coğrafiyasının genişləndirilməsini şərtləndirdi.

Azərbaycanın bu gün hər sahədə qazandığı uğurlar, əldə etdiyi təcrübə göz önündədir. Azərbaycan sabitləşdirici faktor kimi dəyərləndirilir. Ölkəmizin iştirakı olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Azərbaycanın yerləşdiyi coğrafi məkan, iştirakçısı və təşəbbüsçüsü olduğu layihələr dövlətlər, xalqlar arasında körpü rolunu oynayır. Məhz bu rolundan qaynaqlanaraq, 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam həmrəyliyi İli" elan edilmişdir. Dövlətimizin başçısı bildirir: "Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır."

Hərtərəfli inkişaf üçün ölkədə sabitliyin, demokratik inkişafın rolu inkaredilməzdir. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində qısa zamanda sabitlik diyarına çevrilən Azərbaycanda xalqımız təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək. "Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, çünki bu gün dünyada qütbləşmə göz qabağındadır. Böyük dövlətlər öz təsir dairələrini genişləndirmək yönümündə səylər göstərirlər. Bu məqamla rastlaşanda ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, bu, təbii ki, onları qıcıqlandırır. Amma bu etiraf da diqqətə çatdırılır: "Ancaq bu bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə, Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək."

İqtisadi tərəqqi demokratik islahatların sürətini artırır. Demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər ölkəmizdə bərqərar olunub. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Ölkədə vətəndaşlara bütün azadlıqlar verilib. Sərbəst toplaşmaq azadlığı yüksək səviyyədə təmin edilir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə 40-dan artıq siyasi partiyanın, 3 minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da demokratik inkişafın, sabitliyin əsas göstəricilərindəndir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə- Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Ölkədə seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil seçki sistemi formalaşdırılıb. 2003-cü ilin mayında Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, həmçinin Avropa Şurası Venesiya Komissiyası ilə birgə əməkdaşlığı nəticəsində Seçki Məcəlləsi qəbul olunub. Daim təkmilləşən, bütün yenilikləri özündə əks etdirən bu sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, ümumxalq səsverməsinin beynəlxalq standartlara uyğun keçirilməsini şərtləndirir. 2018-ci il tariximizə növbəti prezident seçkiləri ili kimi yazıldı. Azərbaycan bu mühüm hadisənin demokratikliyini, şəffaflığını, beynəlxalq standartlara uyğunluğunu yüksək səviyyədə təmin etməklə demokratik dəyərlərə sadiqliyini bir daha dünyaya nümayiş etdirdi. Bütün bunlar ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir, Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırır. 2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dövlətimizin demokratik prinsiplərə sadiqliyinin bariz nümunəsidir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Son 15 ildə ulu öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirir. Hazırda Azərbaycanın adı dünyanın xoşbəxt, islahatçı ölkələrinin sırasında çəkilir. İqtisadi imkanlarını günbəgün genişləndirən ölkəmizin beynəlxalq nüfuzu artır, əsl söz sahibinə çevrilir. Azərbaycanda sabitliyin, iqtisadi inkişafın davamlılığı yeni-yeni hədəflərə yol açmaqla yanaşı, yeni-yeni tərəfdaşlar qazanmasına da stimul verir. 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi dünyanın haqqa, ədalətə, ölkəmizin mövqeyinə dəstəyinin nümayişi oldu. Bu gün Azərbaycan ictimai, siyasi, humanitar mərkəzə çevrilib. Dünyanın yeni xarici siyasətinin ölkəmizdə müzakirə olunması düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Ölkəmizdə olan qonaqlar inkişafdan heyrətlərini gizlətməyərək, dövlətimizin həyata keçirdiyi siyasətə xalqın dəstəyini böyük məmnunluq hissi ilə qeyd edirlər.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycan atdığı hər addımında bu prinsiplərə sadiqliyini təsdiqləyir. Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, atılan addımlar hansısa təşkilata, dövlətə xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür. Məlum olduğu kimi, qarşıdakı illər üçün əsas hədəf Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görməkdir.

Uğurlarımıza qısa baxış bu gerçəkliyi bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan inkişaf yolunda inamla irəliləyir. Qarşıdakı illərdə ölkəmizi daha böyük uğurlar gözləyir. Bu inama əsas verən əsas amil isə Heydər Əliyev siyasəti və xalqın bu siyasətə böyük dəstəyidir. Dövlətimizin başçısı İlham Əliyevin bu fikirlərini yada salmaq istərdik: "Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir."

Təbii ki, uğurlarımıza sevinən qüvvələrlə yanaşı, sevinməyənlər də var. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında bu məqama da xüsusi diqqət yönəldir. "Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və beynəlxalq aləmdə Azərbaycanın çox gözəl nüfuzu vardır. Əgər belə olmasaydı bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsiz Şurasına qeyri-daimi üzv seçməzdi" söyləyən cənab İlham Əliyev bildirir ki, Azərbaycana qarşı beynəlxalq mediada ədalətsiz kampaniya aparılır. Bu kampaniya ona görə ədalətsizdir ki, ikili standartlar əsasında qurulubdur: "Hər bir ölkədə qüsurlar, çatışmayan cəhətlər və sair var. Biz özümüz onları yaxşı bilirik və həll etməyə çalışırıq. Ancaq ümumi regional kontekstdən Azərbaycanı seçib hədəfə çevirmək, əlbəttə ki, ikili standartlar və anti-Azərbaycan siyasətinin əlamətidir... Ümumiyyətlə, hər bir ölkənin yerinin müəyyən edilməsi siyasəti var. Elə bil ki, kimsə burada bu ölkələrin reytinqini, yaxud da, tutduğu yerləri müəyyən etməyə çalışır." Amma dünyanın bu reallıqları fonunda bu fikri də böyük inam və qətiyyətlə bildiririk ki, bu kampaniya Azərbaycanın daxili və xarici siyasətinə heç bir təsir etməmişdir və heç vaxt etməyəcək. Çünki dövlətimizin siyasətinin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır. İctisadi tərəqqi, daxili sabitlik, xalq-iqtidar birliyinin sarsılmazlığı qarşıya qoyulan hər bir məqsədə yüksək səviyyədə nail olmağa əsas verir. Azərbaycan qarşıdakı illərdə inkişaf etmiş ölkələr sırasında addımlamaqla bir daha düzgün qurulan siyasətin uğurlarını dünyaya təqdim etmiş olacaq. Cənab İlham Əliyev uğurlarımıza söykənərək bildirir:" "Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq."

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***

# Dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyimizin banisi, xilaskarıdır

## 9 İYUN 1993-CÜ İLDƏ BAKIYA QAYIDIŞI İLƏ SUVERENLİYİMİZİ ƏBƏDİLƏŞDİRƏN ULU ÖNDƏR MÜASİR AZƏRBAYCANIN MÜƏLLİFİ OLDUĞUNU ƏMƏLLƏRİ İLƏ TƏSDİQLƏDİ

"Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir" söyləyən cənab İlham Əliyev o dövrdə baş verən hadisələri xarakterizə edərək bildirir ki, o illərdə ölkəmizin gələcəyi aydın deyildi. 1993-cü ilin yay aylarında AXC-Müsavat cütlüyünün fərasətsizliyi üzündən ölkədə qardaş qanı axıdıldı, vətəndaş müharibəsi təhlükəsi yarandı. Torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi zamanda iqtidarda təmsil olunanlar arasında vəzifə bölgüsü üstündə yaranan ikitirəlik Azərbaycanı uçuruma aparırdı.



Naxçıvan MR Ali Sovetinin Sədri işlədiyi müddətdə müstəqilliyimizin əbədiliyi naminə önəmli islahatlar aparan ulu öndər Heydər Əliyev Bakıda yaranan siyasi gərginlikdən çox narahat idi. Uzaqgörən siyasətçi olduğunu Naxçıvanda gördüyü taleyüklü işlərlə sübut edən Heydər Əliyev Ümummilli Lider adını məhz o illərdə qazandı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını, himnini, gerbini bərpa edən Ulu Öndərə xalq məhəbbəti sonsuz idi. Ondan fərqli olaraq Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyünə inam tükənmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkədəki xaos, anarxiya, küçələrdə əli silahlı gəzən başıpozuq dəstələr insanlarda təşviş yaradırdı.

"Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçirilən də Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir" söyləyən Prezident İlham Əliyev dünyada qüdrətli dövlət kimi tanınan Azərbaycanı Ulu Öndərin şah əsəri adlandırır.

Azərbaycan xalqı o vaxt böyüklüyünü göstərərək müdrik siyasətçi Heydər Əliyevi hakimiyyətə dəvət etməklə düzgün yol seçdi. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. İnsanlarda azərbaycançılıq ideologiyası, milli məfkurə formalaşdı. Bu gün də bir həqiqət etiraf olunur ki, əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi.

"Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik" söyləyən, Ulu Öndərin xidmətlərini suverenlik yolunda atılan tarixi addımlar adlandıran Prezident İlham Əliyev bildirir ki, o, Ulu Öndərə xalq məhəbbəti və ehtiramına qısqanclıqla yanaşan, bu etimadı özlərinin iflası kimi anlayan o dövrdəki səbatsız hakimiyyətin səriştəsizliyi üzündən Azərbaycanın üzləşdiyi çətinliklər Ümummilli Liderin fədakarlığı sayəsində aradan qaldırıldı. 1992-ci ildən1993-cü ilin iyun ayına qədərki müddəti fəlakət dövrü adlandıranlar qənaətlərində haqlı idilər. AXC-Müsavat qruplaşması ölkəni uçuruma aparmaqla yaranan iqtisadi böhranı daha da gərginləşdirdilər. Respublikada cərəyan edən proseslər, büdcənin boşaldılması, yaranan iqtisadi böhran, sənayenin iflic vəziyyətinə düşməsi Ermənistanın Azərbaycan torpaqlarını asanlıqla zəbt etməsi ilə nəticələndi. Müxtəlif partiyalara xidmət edən qanunsuz silahlı birləşmələr dövlətin maraqlarına, xalqın mənafeyinə deyil, bir qrup naşı siyasətçiyə xidmət edirdi. Ermənistan ilə qanlı döyüşlərin getdiyi bir zamanda AXC-Müsavat qruplaşması hakimiyyətlərini saxlamaq naminə vətəndaş müharibəsinin başlanması təhlükəsini belə ciddi məsələ kimi görməyəcək qədər kor idilər.

O dövrdə Gəncə şəhərində korpus komandiri Surət Hüseynov tərəfindən qaldırılan qiyamı yatırmaqda aciz olan iqtidarsız iqtidarların günahı üzündən qardaş qanı axıdıldı. Hakimiyyətdə yüksək mövqe tutan İsa Qəmbər-Əli Kərimli-Surət Hüseynov arasında yaranan qarşıdurmalar, 4 iyun Gəncə hadisələri muxtar respublikada da narahatlıq doğururdu. 130 və 709 saylı hərbi hissələrin ərazilərində baş verən qanlı hadisələrdən sonra başlanan gərginliyin faciəli nəticə verəcəyini uzaqgörən siyasəti ilə başa düşən, yaranan gərginliyi izləyən və təhlil edən Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev bilirdi ki, ölkə daxilindəki belə iğtişaşlar fəlakətlə nəticələnə bilər. Çünki müstəqilliyimizə təhlükə olan Gəncə hadisələri Azərbaycanın hərtərəfli məhvinə yönəldilmiş cinayət, hər an alovlana biləcək bir qığılcım idi. İnsanların qənaəti isə bu idi ki, hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz iqtidarı belə çətin məsələləri həll etmək gücündə, bacarığında deyil. Ayrı-ayrı imperialist qüvvələrin strateji maraqlarına xidmət edən Ayaz Mütəllibov kimi, doqquz dövlətin dəstəyi ilə iqtidara gəldiklərini etiraf edən AXC-Müsavat cütlüyünün rəhbərləri də oyuncaq rejim olmaqla kimlərinsə tərtib etdikləri planlara uyğun "siyasət" yeridirdilər. Siyasətdən bixəbər iqtidarın savadsızlığı o dərəcə gülünc idi ki, havadarları tərəfindən müdafiə olunan ermənilərin Azərbaycana torpaq iddialarının genişləndiyi bir vaxtda Naxçıvanın muxtariyyat statusunun ləğv olunması barədə xəyanətkar təkliflər səslənirdi. Vəziyyətin ağırlığını hiss edən ziyalılar, sadə vətəndaşlar, Azərbaycanın taleyi üçün narahat olan insanlar müdrik siyasətçi Heydər Əliyevdən kömək diləyirdilər.

Bunları nəzərə alan ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən Naxçıvan MR Ali Məclisinin və muxtar respublika Nazirlər Kabinetinin birgə iclasında vəziyyət geniş təhlil olundu və hadisəyə münasibət bildirildi. "İyun ayının 4-də Gəncə şəhərində başlanmış və bu günə qədər davam edən hadisələr bizdə ciddi narahatlıq doğurur. Şəhərdə qan tökülüb, normal həyat pozulub, Faktiki olaraq vətəndaş müharibəsi başlanıb. Müstəqil Azərbaycan Respublikasının indiki ağır və keşməkeşli, tarixən məsuliyyətli bir dövründə baş verənləri dəhşətli hadisə kimi qiymətləndirir, qardaş qanı tökülməsini pisləyirik... Bunların qarşısı dərhal alınmalıdır. Hamını bu yolda milli birliyə, vətəndaş həmrəyliyinə dəvət edirik" söyləyən ulu öndər Heydər Əliyev müdrik siyasətçi, təcrübəli dövlət başçısı kimi xalqı birliyə çağırdı. İnsanlar başa düşürdülər ki, Azərbaycanda gərginliyin səbəbi təkcə Dağlıq Qarabağ münaqişəsi deyil, ölkədə vətəndaş müharibəsi üçün qığılcım olan həm də Gəncə hadisələridir. Ümid yeri, xilas yolu axtaran xalqın nəzərləri yenə də Naxçıvana yönəldi. Yekdil ictimai fikir isə yeganə və dəyişilməz idi: Heydər Əliyev Bakıya gəlməli, Azərbaycanı düşdüyü ağır, çətin vəziyyətdən xilas etməlidir.

9 iyun 1993-cü ildə paytaxta gələn Heydər Əliyev əsl vəziyyəti öyrənmək üçün Gəncədə oldu. İyunun 15-də keçirilən Ali Sovetin fövqəladə sessiyasında hadisələrdə zərər çəkən, əzizlərini itirən gəncəlilərlə görüşü barədə məlumat verdi.

Azərbaycanın tarixinə əlamətdar hadisə kimi yazılan həmin gün deputatların yekdil səsverməsi ilə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu seçim ilə Azərbaycanın xilas yolunun, müstəqilliyimizin əbədiliyinin təməli qoyuldu.

Sonra xalqın etimadı ilə Prezident seçilən və andiçmə mərasimində demokratik, müstəqil cəmiyyət quruculuğunda önəmli nailiyyətlər əldə olunacağına dövlət başçısı kimi əminlik ifadə edən Heydər Əliyev Azərbaycanı dünya birliyində qüdrətli ölkə kimi tanıdacağına söz verdi. Vədinə də əməl etdi. Xalqın xilaskarı olduğu 1994, 1995-ci illərdə törədilən dövlət çevrilişlərinə cəhdlər zamanı da təsdiqləndi. Ümummilli lider Heydər Əliyevin zəkası qara qüvvələrə qalib gəldi. Azərbaycan milli intibahın zirvəsinə qədəm qoydu. "Əsrin müqaviləsi" kimi kontraktın imzalanmasını gerçəkləşdirməklə xalqlar arasında əməkdaşlığın təməlini qoydu, neft strategiyasını müəyyənləşdirdi, Azərbaycanın inkişaf parametrlərini düzgün istiqamətləndirdi.

Prezident İlham Əliyevin davam etdirdiyi bu siyasət ümummilli lider Heydər Əliyevin arzusunda olduğu möhtəşəm Azərbaycanı dünyada tanıtdı, fərqləndirdi, nüfuzunu artırdı. Bu baxımdan əminliklə deyirik ki, müasir Azərbaycanın hamını heyrətləndirən inkişaf tarixi, müstəqilliyinin əbədiliyi 9 iyun 1993-cü ildən başlanır.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***



## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*Ülyahəzrət,*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.*

*Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.*

*Hörmətlə,*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 iyun 2019-cu il.

## Z.Ə.HƏSƏNOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasında xidmətlərinə görə Zakir Əsgər oğlu Həsənov "Şöhrət" ordeni ilə təltif edilsin.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 iyun 2019-cu il.

## "TARİXİ ŞƏHƏRLƏRDƏ KÜTLƏVİ TURİZM" MÖVZUSUNDA BEYNƏLXALQ MEMARLIQ FORUMUNUN İŞTİRAKÇILARINA

*Hörmətli forum iştirakçıları!*

*Sizi ölkəmizin paytaxtında "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumunun öz işinə başlaması münasibətilə səmimi təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Biz ilk mötəbər forumunuzun unikal memarlıq abidələri və eyni zamanda, modern üslublu binalarla zəngin, təkrarsız görkəmə malik Bakı şəhərində təşkilini yüksək qiymətləndiririk. Bu, şəhərsalma və memarlığı özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan mədəniyyətinə ehtiramın təzahürüdür. Turizmin müasir problemləri, o cümlədən dövrümüzün reallıqları ilə yaxından səsləşən kütləvi turizm fenomeni ətrafında müzakirələrin məhz belə tarixi məkanda aparılması forumunuza aktuallıq qazandırır.*

*Artıq ayrıca sənaye sahəsinə çevrilmiş olan turizm sektoru hazırda dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycanı onun təbii sərvətləri və rəngarəng coğrafi landşaftı, zəngin mədəni irsi və yenilənmiş infrastrukturu turizm baxımından cəlbedici edir. Bu mədəni və ekoloji turizm potensialı nəzərə alınaraq respublikamızda turizm sektorunun inkişafı ən prioritet hədəflərdən biri elan edilmişdir. Məqsəd təbiət abidələrimizi və xalqımızın böyük keçmişinin izini yaşadan qədim mədəniyyət yadigarlarını geniş miqyasda tanıtmaqdır.*

*Vurğulamaq istərdim ki, müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görmüşük. Yaşayış yerlərinin mühəndislik və nəqliyyat infrastrukturu modernləşdirilmiş, yüksək səviyyəli otellər və neçə-neçə sosial obyekt inşa edilmişdir. Bu işlərin uğurla gerçəkləşdirilməsi memarlarımızın fəaliyyəti ilə sıx əlaqəlidir. Onlar ölkəmizdə mədəni özünəməxsusluğun qorunub saxlanması və ədadlardan qalma mirasın gələcək nəsillərə layiqli şəkildə çatdırılması naminə var qüvvələri ilə çalışırlar. Son illər memarlarımızın xüsusən tarixi şəhərlər və kütləvi turizm arasında ahəngdarlığın təmin edilməsi üçün Beynəlxalq Memarlar İttifaqı ilə münasibətləri zəminində göstərdiyi təşəbbüs və atdığı addımlar təqdirəlayiqdir.*

*Ümidvaram ki, forum çərçivəsində memarların tarixi yerlərdə kütləvi turizmin idarə olunmasında roluna dair aparacağınız diskussiya və fikir mübadiləsi, irəli sürəcəyiniz tövsiyə və təkliflər turizmin aktual məsələlərinin həllinə öz töhfəsini verəcək, həmçinin əməkdaşlığınızın daha da dərinləşməsi və yeni istiqamətlərinin müəyyənləşməsinə xidmət edəcəkdir.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 iyun 2019-cu il.

# Naxçıvanda müasir ağacyetişdirmə sahəsi - "İqlim otağı" fəaliyyətə başlayıb



**İyunun 7-də Naxçıvan Yaşıllaşdırma Xidməti üçün yeni ağacyetişdirmə sahəsi - "İqlim otağı" istifadəyə verilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Naxçıvan Yaşıllaşdırma Xidmətinin direktoru Səyahət İmanov çıxış edərək deyib ki, muxtar respublikada yaşıllıqların sahəsi ilbəil artırılır, yeni meyvə bağları salınır. Bu da tingçilik təsərrüfatlarının inkişafını zərurətə çevirib. Xüsusilə müxtəlif meyvə və həmişəyaşıl tinglərə, gül və bəzək kollarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və "İqlim otağı"nın yaradılması da bu sahədə görülən işlərin davamıdır.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada müasir ağacyetişdirmə sahəsinin - "İqlim otağı"nın istifadəyə verildiyini bildirib, bu münasibətilə kollektivi təbrik edərək deyib: Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublika təbiətinə də təsir etmiş, ağaclar kütləvi qırılmış, yaşıllıqlar məhv edilmişdi. 1995-ci ilin statistikasına əsasən həmin dövrdə muxtar respublikada yaşıllıqlar ümumi ərazinin 0,6 faizini təşkil edirdi. Lakin ötən dövrdə həyata keçirilən yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün muxtar respublikada ümumi ərazinin 20 faizə yaxını yaşıllıqlardır. Həmçinin muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunur, nadir ağac və bitki növləri qorunur, eyni zamanda, mütəmadi yaşıllaşdırma tədbirləri həyata keçirilir.

Ali Məclisin Sədri deyib: Bu günə qədər muxtar respublikada müxtəlif tinglərə və gül kollarına olan tələbatın bir hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin yaradılan şərait imkan verəcəkdir ki, tələbat tamamilə yerli istehsal hesabına ödənilsin, ərazilərə uyğun meyvə və həmişəyaşıl tinglər, bəzək kolları və güllər yetişdirilsin. Müasir avadanlıqlarla təmin olunmuş "İqlim otağı"nda tinglər və gül kolları açıq havaya nisbətən daha tez böyüyür. Bu da daxili tələbatı iki dəfədən artıq ödəməyə imkan verir. Muxtar respublikanın aid təşkilatları ilə tingçilik sahəsi arasında qarşılıqlı əlaqə yaradılmalı, sifarişlər qəbul olunmalıdır. Kollektiv həm dövlət təşkilatlarının, həm də əhalinin tələbatına uyğun ağac və bəzək kolları yetişdirməlidir.

Ali Məclisin Sədri muxtar respublikanın tələbatının yerli istehsal hesabına ödəniləcəyinə əminliyini bildirib, kollektivə işlərində uğurlar arzulayıb.

Ali Məclisin Sədri "İqlim otağı"nda tələbata uyğun tinglərin və gül kollarının yetişdirilməsi, eləcə də yerli sortlara üstünlük verilməsi və fəaliyyətin genişləndirilməsi barədə tapşırıqlar verib.

# Babək Rayon Elektrik Şəbəkəsinin inzibati binası və yarımstansiyası istifadəyə verilib








**Muxtar respublikanın davamlı inkişafını xarakterizə edən amillərdən biri də enerji təhlükəsizliyinin təmin olunması və müasir elektroenergetika infrastrukturunun yaradılmasıdır. Elektrik enerjisinin istehsalı ilə yanaşı, onun istehlakçılara etibarlı və itkisiz çatdırılması da əsas məsələlərdəndir.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 7-də Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binası və yarımstansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.

Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxış edərək deyib ki, muxtar respublikada energetika sisteminin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, enerji təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Ötən əsrin 90-cı illərində muxtar respublikada elektrik enerjisinə olan tələbat idxal hesabına ödənilirdi. Lakin ötən dövrdə ölkəmizdə energetikanın inkişafı sahəsində həyata keçirilmiş tədbirlərin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında da yeni su və günəş elektrik stansiyaları, modul elektrik stansiyası istifadəyə verilmiş, qaz-turbin elektrik stansiyası yenidən qurulmuşdur. İstehsal olunmuş elektrik enerjisinin istehlakçılara keyfiyyətli çatdırılması da diqqətdə saxlanılmış, yeni yarımstansiyalar tikilmişdir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada elektrik enerjisinə olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada müasir elektrik avadanlıqlarından istifadə olunur. Həmin avadanlıqların uzunömürlü olması elektrik enerjisinin keyfiyyətli verilməsindən asılıdır. Bu da yarımstansiyaların müasir tələblər səviyyəsində qurulmasını zəruri edir. Həyata keçirilən bu işlər bir tərəfdən əhalini keyfiyyətli elektrik enerjisi ilə təmin edirsə, digər tərəfdən isə enerji itkisinin qarşısını alır. Muxtar respublikada energetika sahəsində görülən işlər, qurulan müasir yarımstansiyalar daxili imkanlar - ödənilmiş enerji haqları hesabına həyata keçirilir. Ona görə də elektrik enerjisi haqları bundan sonra da tam yığılmalı, enerjidən qənaətlə istifadə olunmalıdır. Bu gün istifadəyə verilən yarımstansiya Babək rayonunun elektrik istifadəçilərinin 20 faizinə xidmət göstərəcəkdir. Yarımstansiya üzrə tələbat yay aylarında 1,8, qış aylarında isə 1,2 meqavatdır. Quraşdırılan müasir avadanlıqlar imkan verəcəkdir ki, yarımstansiya uzun illər istehlakçılara keyfiyyətli xidmət göstərsin. Bu isə energetika sahəsində qazanılan nailiyyətdir. Qarşıda duran əsas vəzifə də əhalini keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdən, qurulanları qorumaqdan və onlardan səmərəli istifadə etməkdən ibarətdir.



Ali Məclisin Sədri inzibati binanın tikilməsində və yarımstansiyanın qurulmasında əməyi olanlara təşəkkür edib, qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulayıb.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olub. Bildirilib ki, 35/10 kilovoltluq yarımstansiyanın idarəetmə otağı, 35 və 10 kilovoltluq qapalı paylayıcı quruluşlar, əməliyyat briqadası üçün otaqlar və bufet birinci mərtəbədə, iş otaqları və iclas zalı isə ikinci mərtəbədə yerləşir.

Ali Məclisin Sədri istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, elektrik enerjisindən qənaətlə istifadə olunması və maarifləndirmə işlərinin görülməsi barədə tapşırıqlar verib.

# "Tarixi şəhərlərdə kütləvi turizm"

## *Bakıda bu mövzuda Beynəlxalq Memarlıq Forumu işə başlayıb*




**İyunun 7-də Heydər Əliyev Mərkəzində "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda Beynəlxalq Memarlıq Forumu öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Forum Mədəniyyət Nazirliyi və Azərbaycan Memarlar İttifaqının dəstəyi, Beynəlxalq Memarlar İttifaqının (BMİ) iştirakı ilə reallaşıb.

Əvvəlcə tədbir iştirakçıları Mərkəzin foyesində təşkil edilmiş sərgi ilə tanış olublar.

Dövlət himni səsləndiriləndən sonra Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Əsədov Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbiri Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, Əməkdar memar Elbay Qasımzadə açaraq rəhbərlik etdiyi təşkilatın Beynəlxalq Memarlar İttifaqının işində fəal iştirak etdiyini, Bakıda memarlıq sahəsində beynəlxalq əhəmiyyətli tədbirlər, müsabiqə və festivallar keçirdiyini, mütəmadi olaraq cəmiyyətdə memarların yerinin və rolunun gücləndirilməsi ilə məşğul olduğunu qeyd edib.

"Bizi tanıyırlar, bizə inamla yanaşırlar və hörmət edirlər. Bizim digər sahələrdə olduğu kimi, memarlıq sahəsində də əldə etdiyimiz nailiyyətlər bütün dünyaya göstərir ki, Azərbaycan inkişaf edir. Forumda üç gün ərzində keçiriləcək müzakirələrin nəticələrindən dünyanın hər bir guşəsində, o cümlədən tarixi şəhərlərində istifadə olunacaq. Turizm nəinki tarixi irsə ziyan vurmayacaq, hətta tarixi irs turizmdən faydalanacaq. Bu günlər ərzində xarici qonaqlar xalqımızın mədəni irsi ilə tanış olacaq, müstəqil Azərbaycan son illərdə əldə etdiyi nailiyyətlər, xalqımızın qonaqpərvərliyi ilə tanış olacaqlar. Forum zamanı keçiriləcək sessiyalarda tarixi irsin istifadəsi və mühafizəsi, turizmin iqtisadiyyata, istehlakçıların vərdişlərinə, şəhər infrastrukturuna təsiri müzakirə olunacaq, tarixi şəhərlərdə kütləvi turizmə nəzarət edilməsi məsələləri araşdırılacaq", - deyə Elbay Qasımzadə vurğulayıb.

Qeyd edilib ki, Forumun keçirilməsi ötən il martın 29-da Prezident İlham Əliyevin BMİ-nin ali rəhbərliyi ilə görüşü zamanı qərara alınıb.




Forumun əsas məqsədi turizmin sürətli inkişaf istiqamətlərini öyrənmək, mədəni irsin qorunması üçün mövcud və potensial ictimai siyasəti təhlil etmək, bu günün memarlığını sabahın mirası olaraq nəzərdən keçirmək, UNESCO-nun dünya irsinin statusu üçün müasir memarlıq siyahısını hazırlamaq, davamlı turizmə dair müvafiq qaydaları, kütləvi turizmin təsir etdiyi tarixi şəhərlərin şəbəkəsini yaratmaqdır.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonye, BMT-nin Dünya Turizm Təşkilatının turizm bazarının təhlili və rəqabətliliyi departamentinin baş mütəxəssisi Miçel Julian çıxış edərək Forumun əhəmiyyətini qeyd ediblər. Çıxışlar zamanı ucuz səyahət imkanlarının turizm sənayesi üçün yaratdığı problemlər diqqətə çatdırılıb. Bildirilib ki, nəticədə, kütləvi turizm getdikcə dağıdıcı xarakter daşıyaraq demoqrafik dəyişikliklərə, yerli əhalinin narazılığına, qiymətlərin artmasına, tarixi mirasın və mədəni özünəxaslığın itirilməsinə gətirib çıxarır. Bu Forum tarixi şəhərlər və turistlər arasında informasiya ahənginə nail olmaq üçün memarların və digər mütəxəssislərin müzakirə edəcəyi yolların dialoquna yönəlib.

UNESCO-nun Dünya İrsi Mərkəzinin direktoru Mextild Rössler videomüraciətlə Forum barədə öz fikirlərini bildirib və tədbirin işinə uğurlar arzulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev Forumun BMİ-nin tarixində mühüm hadisə kimi qalacağını söyləyib. O, əminliyini ifadə edib ki, qonaqlar Azərbaycan memarlıq nümunələri ilə tanış olmaqla yanaşı, onun tarixi, müasir abidələrini ziyarət edərək maraqlı, yaddaqalan günlər keçirəcəklər.




Ölkəmizin qədim, maddi-mədəni abidələri barədə məlumat verən nazir son illər şəhər və qəsəbələrimizin abadlaşdırılması, onların memarlıq simasının zənginləşdirilməsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işləri diqqətə çatdırıb. Nazir, eyni zamanda, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin tarixi və memarlıq irsinin qorunması və bərpası işinə böyük diqqət ayırdığını vurğulayıb.

Əbülfəs Qarayev qeyd edib ki, ölkəmiz yaxın vaxtlarda növbəti beynəlxalq tədbirə - UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi edəcək. Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biridir. Bu tədbirə ev sahibliyi etmək və eyni zamanda, Komitəyə sədrlik etməklə Azərbaycan dünya xalqlarının mədəniyyət tarixində öz müsbət izini qoyacaq.

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev belə tədbirlərin turizmin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Forum "Memarlıq irsinin istifadəsi və qorunub saxlanması" mövzusunda sessiya ilə davam edib. Sessiyada tarixi şəhərlərin bərpası və ya qorunub saxlanması üçün lazımi mexanizmlərin tətbiq olunması məsələləri müzakirə edilib. Müzakirə zamanı, həmçinin yerli icmanın doğma şəhərə qarşı məsuliyyət hissinin artırılması və cəlb olunan tərəflərin mirasdan tarazlaşdırılmış şəkildə istifadə imkanları kimi məsələlərə toxunulub.

Qeyd edək ki, üç gün davam edəcək Forumda iştirak etmək üçün Azərbaycana 100-dən çox ölkədən 350 nəfərə yaxın xarici qonaq gəlib. Forum çərçivəsində paralel olaraq 4-cü Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin, iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının Şura iclasının və iyunun 11-də növbədənkənar Baş Assambleyasının keçirilməsi qərara alınıb.

# Bakı Ali Neft Məktəbinin daha 4 tələbəsi İtaliyanın nüfuzlu şirkətində işə başlayır

**Bakı Ali Neft Məktəbində (BANM) bu ali təhsil ocağının tələbələrinin İtaliyanın "Maire Tecnimont Qroup" şirkətində keçdiyi təcrübə proqramının yekunu ilə bağlı görüş keçirilib.**

Görüşdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, "Maire Tecnimont Group"un Xüsusi təşəbbüslər və regionda koordinasiya üzrə birinci vitse-prezidenti, Rusiya və Xəzər regionu üzrə vitse-prezidenti Gianni Bardazzinin rəhbərlik etdiyi nümayəndə heyəti, ali məktəbin kollektivi və tələbələri iştirak ediblər.

Nümayəndə heyətinin tərkibində "Maire Tecnimont Qrup"un podratçısı "Kinetics Technology" şirkətinin Bakıdakı nümayəndəliyinin rəhbəri Nikolo Haylpern, şirkətin Rusiya və Xəzər regionunda biznesin inkişafı üzrə mütəxəssisi Nataliya Sirazutdinova, Kommunikasiyalar üzrə menecer Massimo Dapoto, Kommunikasiyalar üzrə mütəxəssis Daniyela Asti, İnsan resursları üzrə koordinator Aidə Bəşirova, eləcə də Ofis və ümumi məsələlər üzrə koordinator Nigar Heydərova təmsil olunub.

Qonaqları salamlayan rektor Elmar Qasımov sözügedən şirkətlə səmərəli əməkdaşlıq sayəsində ölkəmizdə nəhəng layihələr həyata keçirildiyini və müsbət nəticələr əldə olunduğunu diqqətə çatdırıb. 2016-cı ildə Bakı Ali Neft Məktəbi ilə imzalanan müqaviləyə əsasən, hər il bir neçə tələbənin bu şirkətdə təcrübə keçdiyini qeyd edən rektor bildirib ki, Kimya mühəndisliyi ixtisasının 4 nəfər sonuncu kurs tələbəsi hazırda "Maire Tecnimont" şirkətinin Azərbaycandakı nümayəndəliyində təcrübələrini tamamlayıblar.



"Nəticələr göstərir ki, növbəti ildən həmin tələbələr şirkətdə işə başlayacaqlar. Ötənilki uğurlu əməkdaşlığın nəticəsi olaraq isə BANM-in 2 məzunu hazırda sözügedən şirkətdə çalışır. Həmçinin 4 tələbəmiz İtaliyanın Sortino şəhərində təşkil edilən Yay məktəbində ödənişsiz təlim imkanı qazanıb",- deyə rektor bildirib.

Bundan başqa, Elmar Qasımov şirkətlə birgə BANM-də Polimerlər üzrə Tədqiqat Laboratoriyasının yaradılmasının da nəzərdə tutulduğunu diqqətə çatdırıb.

"Maire Tecnimont Group"un Xüsusi təşəbbüslər və regionda koordinasiya üzrə birinci vitse-prezidenti, Rusiya və Xəzər regionu üzrə vitse-prezidenti Gianni Bardazzi öz növbəsində bildirib ki, görüşün digər məqsədi də gələcək əməkdaşlıq perspektivlərinin müzakirə olunmasıdır.

"Söz verildiyi kimi, Bakı Ali Neft Məktəbi bizim şirkətə Azərbaycanın ən yaxşı tələbələrini təqdim edib. Artıq o tələbələr bizim əməkdaşlar olaraq, şirkətin mənfəət və investisiya əldə etməsi prosesinin iştirakçılarına çevriliblər", - deyə şirkətin vitse-prezidenti vurğulayıb.

"Maire Tecnimont Qrup"un Bakı ofisində işlə təmin olunan, eləcə də təcrübə keçən tələbələr dəstək və yaradılan şərait üçün ali məktəbin və şirkətin rəhbərliyinə təşəkkürlərini ifadə ediblər.

Sonda istehsalat təcrübəsi proqramını uğurla başa vuran və işlə təmin olunan tələbələr sertifikatlarla təltif ediliblər.

Qeyd edək ki, Bakı Ali Neft Məktəbinin 4-cü və 5-ci kursları üçün nəzərdə tutulan bu proqram BANM və İtaliyanın "Maire Tecnimont Qroup" şirkəti arasında 19 oktyabr 2016-cı il tarixində imzalanmış əməkdaşlıq haqqında razılaşmaya əsasən həyata keçirilir.

Məlumat üçün bildirək ki, İtaliyanın "Maire Tecnimont" şirkətlər qrupu mühəndislik, tikinti, texnologiyalar, lisenziyalaşdırma, energetika və karbohidrogenlər sahəsində ixtisaslaşmış aparıcı şirkətlərdəndir.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Hökumət başçılarının Aşqabad sammiti:
# MDB-nin perspektivinin müzakirəsi




Türkmənistanın paytaxtında MDB-yə üzv dövlətlərin hökumət başçılarının növbəti iclası keçirilib. Orada təşkilat üçün çox vacib olan məsələlər müzakirə edilib. Müzakirələr səmərəli olub və müxtəlif sahələr üzrə doqquz sənəd imzalanıb. Həmin sənədlərdə təşkilata üzv olan ölkələrin əməkdaşlığının bir sıra aspektləri öz ifadəsini tapıb. Onların sırasında ekspertlər üçün tranzit imkanlarının genişləndirilməsi və intellektual mülkiyyətin qorunması xüsusi maraq kəsb edib. Bu məsələlər bütün dünya üçün aktualdır. MDB-yə üzv ölkələrin qarşılıqlı əlaqələrinin inkişafında isə onların daha böyük əhəmiyyəti vardır. Bütövlükdə iclas müsbət əhval-ruhiyyədə keçib. Onun bir sıra geosiyasi aspektləri üzərində geniş dayanmağa ehtiyac vardır.

### Yeni əməkdaşlıq səviyyəsinə yüksəliş: üzv ölkələr üçün aktual olan məsələ

Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının Aşqabad sammiti kifayət qədər səmərəli keçib. Gündəliyə çıxarılan bütün məsələlər üzrə anlaşma əldə edilib. Azərbaycanı Baş Nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Aparılan müzakirələrdə Azərbaycan nümayəndə heyəti fəal iştirak edib. Ölkənin milli maraqları əsas götürülüb. Ekspertlərin fikrinə görə, MDB hökumət başçıları təşkilatın gələcəyi baxımından əhəmiyyətli məsələləri müzakirə ediblər.

İlk növbədə, iştirakçılar MDB-nin gələcək taleyi haqqında fikir mübadiləsi aparıblar. Təşkilatın sürətlə dəyişən müasir geosiyasi şəraitdə daha çevik və əhatəli fəaliyyətə keçməsi zərurəti vurğulanıb. MDB dünya miqyasında mövqeyini möhkəmləndirmək istəyirsə, müasir tələbləri mütləq nəzərə almalıdır. Türkmənistan Prezidentinin fikrincə, bu kontekstdə təşkilat Şimal-Cənub və Şərq-Qərb istiqamətlərində nəqliyyat imkanlarını daha da genişəndirməlidir. Həmin bağlılıqda Azərbaycanın Mərkəzi Asiya-Xəzər dənizi-Qara dəniz xəttində inteqrativ proseslərə təkan verən təşəbbüsləri dəstəklənməlidir. Bu, bütövlükdə Asiya-Avropa əlaqələrinin yeni səviyyəyə yüksəlməsində ciddi rol oynaya biləcək təşəbbüsdür. MDB təşkilat kimi Bakının bu addımına geniş dəstək verməlidir.

MDB üçün geosiyasi və xarici siyasi aspektlərdə aktual olan digər məsələ beynəlxalq təşkilatlarda üzv dövlətlərin fəaliyyətlərinin koordinasiya edilməsi ilə bağlıdır. O cümlədən BMT və ATƏT kimi təşkilatlarda qarşılıqlı əlaqə prinsipi üzrə fəaliyyətə daha çox diqqət yetirilməlidir. Bu bağlılıqda terrorçuluq, ekstremizm, narkotik maddələrin qanunsuz dövriyyəsi, kibercinayətlərə qarşı mübarizə, informasiya təhlükəsizliyinin təmini kimi məsələlərdə ortaq hərəkət etməyin vacibliyi vurğulanıb. Məsələnin bu tərəfi Azərbaycan üçün də aktualdır.

Ancaq problem ondadır ki, Ermənistan təcavüzkar siyasətindən əl çəkməyincə, MDB daxilində yuxarıda arzulanan koordinasiyalı fəaliyyəti yaratmaq mümkün deyildir. Həm BMT, həm də ATƏT-in qəbul etdiyi sənədləri yerinə yetirməyən, Azərbaycanın ərazi bütövlüyünü pozan bir ölkə ilə xarici siyasətdə necə koordinasiyalı hərəkət etmək olar? Bu səbəbdən Aşqabadda səslənən bu kimi xoş fikirlərin reallaşdırılması üçün real şəraitin yaradılması məsələsi daha aktualdır. Ermənistanın təcavüzkar siyasətini dayandırıb, işğal etdiyi Azərbaycan torpaqlarından silahlı dəstələrini çıxarması bu istiqamətdə ilk addım olardı. Təəssüf ki, Aşqabad sammitində bu barədə müzakirə aparılmayıb.

Hökumət başçılarının iclasında bir neçə vacib sənədin qəbul edilməsi təbii ki, müsbət haldır. Sammit çərçivəsində doqquz sənəd imzalanıb. Onlar gömrük orqanlarının fəaliyyəti, nəqliyyat imkanlarının genişləndirilməsi, antiterror mərkəzində kadr dəyişikliyi, muzey işinin təşkilində əməkdaşlıq, fundamental tədqiqatlar sahəsində əməkdaşlıq, məhsulların gömrükdən keçidinə nəzarət qaydalarında dəyişiklik, intellektual mülkiyyət məhsullarına gömrük nəzarəti mexanizmini təkmilləşdirilməsi, innovasiya əməkdaşlığının inkişaf etdirilməsi və məhsul istehsal edən ölkələrin müəyyən edilməsi qaydaları ilə bağlı olub. Bu sahələrin hər biri təşkilatın funksional imkanlarının inkişaf etdirilməsi üçün aktuallıq kəsb edir. Onların yerinə yetirilməsi müsbət nəticələr verə bilər. Ekspertlər burada bir sıra məqamları ayrıca vurğulayırlar. Məsələn, fundamental tədqiqatlar üzrə və innovasiyalı əməkdaşlıq bu qəbildəndir. Hər iki məsələ müasir dövrün tələbləri ilə sıx bağlıdır.

### İntellekt və innovasiya: iki vacib faktorun qorunması

Ekspertlərin rəyinə görə, innovasiyalı inkişafla bağlı proqramın hazırlanması onu göstərir ki, MDB ilə bağlı irəli sürülən bir sıra bədbin proqnozların əsası yoxdur. Belə ki, bu təşkilatın potensialının tükənməkdə, onun gələcəyinin isə şübhə altında olduğu kimi fikirlər səsləndirilirdi. 2030-cu ilə qədər innovasiyalı inkişafın nəzərdə tutulması bu proqnozun əsassız olduğunu təsdiq edir.

İnnovasiyalar müasir cəmiyyətlər üçün olduqca vacib bir faktordur. İnkişafın innovasiyalı olması isə tamamilə yeni bir yanaşma tələb edir. Bunun reallaşdırılması MDB ölkələrinin birgə fəaliyyətində təsirli yeniləşmələrin sayəsində mümkündür. Bu baxımdan innovasiyalı inkişafa diqqət yetirilməsi özlüyündə ciddi infrastruktur, təşkilati, tədqiqat və çevik fəaliyyət mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu kimi vacib istiqamətlərin işə keçirilməsi isə kompleks proqramların reallaşdırılması halında müsbət nəticə verə bilər.

Həmin bağlılıqda fundamental tədqiqatlar sahəsində əməkdaşlığın genişləndirilməsi əhəmiyyətli məqam kimi görünür. Bu, faktiki olaraq, MDB çərçivəsində elm sahəsində ortaq fəaliyyət mexanizminin yaradılması anlamına gəlir. Əlbəttə, onun reallaşdırılması asan məsələ deyil. Eyni zamanda, bunun üçün böyük maliyyə vəsaiti lazımdır. Ancaq ideya olaraq bu istiqamətdə ortaq fəaliyyət proqramlarının işlənib hazırlanması və konkret layihələrdə reallaşdırılması vacib bir özəllikdir. Təcrübə bu istiqamətdə üzv dövlətlərin nə dərəcədə qərarlı olduğunu göstərəcək.

Ekspertlər onu da vurğulayırlar ki, yuxarıda qeyd edilən məqamların işığında intellektual mülkiyyətin qorunması məsələsi xüsusi aktuallıq kəsb edir. Aşqabadda hökumət başçıları həmin məsələni iki aspektdə müzakirə ediblər. Onlardan birincisi birbaşa intellektual mülkiyyətin qorunmasına aiddir. Bu məsələ bütün dünya üçün aktualdır. MDB-yə üzv dövlətlərin intellektual mülkiyyətinin qorunması isə onların hər birində ixtiralar və kəşflərin müəlliflik hüququnun qorunmasına bağlıdır. Bu, həmin sahədə yeni texnologiyaların qanuni əsasda tətbiqi üçün də əlavə imkanlar yaradır.

Bu kontekstdə gömrük nəzarət-keçid məntəqələrində intellektual mülkiyyət kateqoriyasına daxil olan məhsullara nəzarət mexanizminin daha da təkmilləşdirilməsi zərurəti meydana çıxıb. Aşqabadda hər iki aspekt üzrə konkret sənəd qəbul edilib. Gözləmək olar ki, təşkilata daxil olan dövlətlər bu istiqamətdə addımlarını atacaqlar.

Təbii ki, Aşqabad sammitində aktual olan məsələlərdən biri kimi nəqliyyat-tranzit imkanlarının genişləndirilməsini vurğulamaq lazımdır. Görünür, təşkilata üzv olan dövlətlər bir sıra beynəlxalq layihələrdə daha fəal mövqe tutmaqda qərarlıdırlar. O cümlədən "Bir kəmər, bir yol" beynəlxalq layihəsi coğrafi olaraq MDB ölkələri ilə sıx əlaqəlidir. Çindən başlayıb Avropaya gedən yol üzərində bir neçə MDB ölkəsi var. Çinin irəli sürdüyü layihədə MDB-yə üzv dövlətlərin müstəqil iştirak etdiyi məlumdur. Lakin onlar həm də MDB-nin üzvləri olduqlarından, obyektiv olaraq, təşkilat üzvü kimi də müəyyən fəaliyyətləri koordinasiya etməli və hüquqi aspektdə tənzimləməlidirlər.

Beləliklə, hökumət başçılarının Aşqabad sammitinin səmərəli olduğunu demək olar. Orada qəbul edilən sənədlər reallaşdırılsa, təşkilat daha güclü struktura və funksional imkanlara malik olar. Ancaq bununla yanaşı, indidən diqqət yetirilməli və prinsipial xarakter daşıyan məqamların da olduğunu unutmaq olmaz. Bu sırada MDB-yə üzv olan ölkələr arasında münaqişələrin mövcudluğu xüsusi qeyd edilməlidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən, iki ölkənin MDB üzvü kimi əməkdaşlığı mümkün deyildir. Azərbaycan Ermənistanı təcavüzkar siyasətinə görə bütün regional layihələrdən təcrid edib. Erməni ordusu işğal etdiyi Azərbaycan ərazilərini tərk etməyənə qədər bu vəziyyət davam edəcək. Bu səbəbdən qəbul edilən sənədlər nə qədər aktual və perspektivli olsa da, münaqişələr həll edilməyincə onların həyata keçməsi imkansızdır.

Buradan məntiqi bir nəticə əldə edilir: Aşqabad sammiti bir daha təsdiq etdi ki, MDB məkanında mövcud olan münaqişələr mütləq həll edilməlidir. Bu istiqamətdə təşkilat fəallığını xeyli artırmalıdır. Onun bütün proqramlarının gələcəyi münaqişələrin taleyi ilə əlaqəlidir. Həmin məsələyə dair Aşqabadda sənəd imzalanmasa da, yazılmamış qanun kimi aktual olduğu bir daha aydın oldu.

**Newtimes.az**

## Ədliyyə naziri Gəncədə vətəndaşları qəbul edəcək



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov iyunun 14-də Gəncə şəhərində ədliyyə fəaliyyəti ilə bağlı vətəndaşları qəbul edəcək.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda, Ədliyyə nazirinin müavini Vilayət Zahirov iyunun 12-də Samuxda, Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov isə iyunun 13-də Göygöl rayonunda vətəndaşları qəbul edəcəklər.

Vətəndaşlar qəbullara Gəncə regional ədliyyə idarəsi (ünvan: Gəncə şəhəri, Yeni Gəncə qəsəbəsi, 28 May küçəsi; əlaqə telefonu: (022) 254-48-15,(022) 254-48-21), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Həmçinin vətəndaşların rahatlığı üçün nazirliyin rəhbərliyinin bölgələrdə keçiriləcək qəbullarına elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

## Sankt-Peterburqda "Media dünya münaqişələrində: iştirakçı və ya müşahidəçi?" mövzusunda panel sessiya keçirilib



İyunun 6-da Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Forum çərçivəsində "Media dünya münaqişələrində: iştirakçı və ya müşahidəçi?" mövzusunda panel sessiya keçirilib.

Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın moderatorluğu ilə keçən sessiyada AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov, TASS agentliyinin baş direktoru Sergey Mixaylov, Associated Press-in prezidenti Qari Pruitt, Press Association Group-un baş direktoru Klayv Marşal, France Press-in baş direktoru Fabris Fris, Albaniya Teleqraf Agentliyinin baş direktoru Armela Krasniqi və digər ölkələrin xəbər agentliklərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Tədbirdə medianın siyasi məsələlərə, müxtəlif ölkələrdə baş verən münaqişələrə təsirindən, habelə müasir dünyada böyük problemə çevrilmiş feyk xəbərlərin yayılmasının qarşısının alınması yollarından danışılıb. Qeyd edilib ki, bəzi kütləvi informasiya vasitələri siyasi proseslər barədə qeyri-obyektiv, yoxlanılmamış xəbərlər yayırlar ki, bu da cəmiyyəti çaşdırır, hətta mübahisələrin münaqişələrə çevrilməsinə yol açır. Kütləvi informasiya vasitələri belə hallardan uzaqlaşmalı, cəmiyyət qarşısında vəzifə borclarını yaddan çıxarmamalıdırlar.

Çıxış edənlər xəbər agentliklərinin fəaliyyətlərinin şaxələndirilməsinin, cəmiyyəti aldadan feyk xəbərlər yayan KİV-lərə qarşı birgə mübarizənin vacibliyini diqqətə çatdırıblar.

Qeyd edək ki, 75 ölkədən 15 mindən çox nümayəndənin iştirak etdiyi Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu dünyada iqtisadiyyat və biznes sahələrində keçirilən ən böyük tədbirlərdən biridir. 1997-ci ildən keçirilən Forumun əsas məqsədi işgüzar dairələrin nümayəndələri arasında ünsiyyət yaratmaq, Rusiyanın qarşısında duran iqtisadi məsələlərin həlli yollarını müzakirə etmək və xarici bazarlara çıxış imkanları axtarmaqdan ibarətdir.

"Ekspoforum" konqres-sərgi mərkəzində reallaşan Forum çərçivəsində Rusiyanın müxtəlif şirkətlərinin geniş sərgisi də təşkil olunub.

# YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin V konfransı





İyunun 7-də Daşkəsən Rayon İcra Hakimiyyətinin iclas zalında YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər.

Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin sədri Elşən Alıyev hesabat dövrü ərzində görülən işlər barədə məruzə ilə çıxış edib. YAP-ın keçdiyi zəngin inkişaf yolundan danışan Elşən Alıyev qeyd edib ki, keçən dövr ərzində partiyanın Daşkəsən rayon təşkilatı öz sıralarını xeyli genişləndirib və bunun da əsas hissəsini gənclər təşkil edir.

Sonra fəal gənclərdən Aygün İbrahimova və Cavid Məmmədov hesabat məruzəsi ətrafında çıxış edərək Prezident cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev vurğulayıb ki, Azərbaycan dövləti öz ardıcıl nailiyyətləri ilə istər regionda, istərsə də beynəlxalq aləmdə nüfuzunu bütün istiqamətlərdə dünyada sübuta yetirib: "Əsası ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş müdrik siyasi kurs cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əlbəttə ki, əldə edilən nailiyyətlərin hər biri ölkəmizdə yaranmış sabitliyin təntənəsidir. Cənab Prezident İlham Əliyev ölkəmizdə sabitlik yaradaraq Azərbaycanı bütün sahələr üzrə hərtərəfli inkişaf yolu ilə aparır. Təsadüfi deyil ki, 730 min nəfərdən çox üzvü olan partiyamızın böyük hissəsini gənclər təşkil edir. Onlar ölkə rəhbəri tərəfindən reallaşdırılan inqilabi islahatlarda yaxından iştirak edirlər. Müstəqil dövlətçiliyimizə sədaqət nümayiş etdirdikləri üçün daşkəsənli gənclərə minnətdarlığımı bildirirəm".

Milli Məclisin deputatı Kamran Bayramov isə çıxışında gənclərə xitab edərək onları ulu öndər Heydər Əliyevin ideyalarına sadiq yenilməz, mütəşəkkil qüvvə adlandırıb: "Azərbaycan gəncliyi ölkəmizin diplomatik uğurlarının qazanılmasında yaxından iştirak edir. Beynəlxalq idman, o cümlədən nüfuzlu elm yarışlarında qələbə qazanan gənclərimizin Azərbaycan bayrağını yüksək pillələrdə dalğalandırmaları bütünlükdə gəncliyə göstərilən diqqətin nümunəsidir. Sevindirici haldır ki, bugünkü gəncliyimiz zamanın bütün çağırışlarına savab verə biləsək səviyyədə hazırlıqlıdırlar. Gənclər bundan sonra da üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, Azərbaycanın uğurlarına qısqanclıqla baxan mənfur niyyətli qüvvələrə siyasi hazırlıqları, elmdə, iqtisadiyyatda qazandıqları nailiyyətlərlə savab verməlidirlər".

Konfransda təşkilati məsələlərə baxılıb. Kənan Bayramov YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin yeni sədri seçilib. Gənclər Birliyinin 7 nəfərdən ibarət İdarə Heyəti, 15 nəfər Şura üzvü seçilib. YAP Gənclər Birliyinin 5-ci ümumrespublika konfransında iştirak edəcək gənclər müəyyənləşib.

Konfransın sonunda YAP sıralarına yeni qəbul olunmuş gənclərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

*Cavid Əkbərov,*
*"İki sahil"*

# YAP Bərdə rayon təşkilatı Gənclər Birliyinə yeni sədr seçilib






Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Konfrans dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya tədbiri açaraq Azərbaycan dövlətinin gənclərə göstərdiyi diqqət və qayğıdan, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin fəaliyyətindən danışıb. Bildirilib ki, YAP Gənclər Birliyi respublikamızın avanqard gənclər təşkilatıdır. Partiya üzvlərinin 40 faizini gənclər təşkil edir.

Konfransda YAP rayon təşkilatı Gənclər Birliyinin hesabatı dinlənilib. Məlumat verilib ki, rayon təşkilatının 11 min 257 nəfər üzvündən 3455-i gənclərdir.

Hesabat ətrafında rayon Gənclər və İdman İdarəsinin rəisi Hikmət Ələkbərli, Heydər Əliyev Mərkəzinin əməkdaşı Tamam Hüsüzadə, rayon Təhsil şöbəsinin müdiri Rzaqulu Şərifov çıxış ediblər.

Sonra konfransın qərar layihəsi qəbul edilib.

Tədbirdə Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev və Milli Məclisin deputatı İlham Məmmədov çıxış edərək əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, gənclərin dövlət müstəqilliyinin möhkəmləndirilməsindəki xidmətlərindən, dövlətimizin gələcəyinin daha parlaq olacağından danışıblar. Çıxışlarda Bərdə rayon gənclərinin rayonun ictimai-siyasi həyatındakı fəallığı da yüksək qiymətləndirilib.

Qeyd edək ki, konfransda təşkilati məsələlərə baxılıb. YAP Bərdə rayon təşkilatı Gənclər Birliyinin 17 nəfər Şura üzvü, 9 nəfər İdarə Heyəti seçilib. Elşən Məmmədov YAP Bərdə rayon təşkilatı Gənclər Birliyinin sədri, Fuad Ağayev və Nərgiz Quliyeva isə sədr müavinləri seçiliblər. İki nəfər isə YAP Gənclər Birliyinin növbəti konfransına 2 nəfər nümayəndə müəyyənləşib.

Konfransda YAP sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsdiqələri təqdim olunub.

Sonda Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

# "Azəriqaz" rəhbərliyi vətəndaşların müraciətlərini dinləyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 7-də SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin (İB) baş direktoru Əkbər Hacıyev Ağsu şəhərində, Birliyin baş direktorunun müavinləri Ramil İsgəndərov Qobustan, Ruslan Əliyev isə Şamaxı rayonunda vətəndaş qəbulu keçiriblər.**

Energetika Nazirliyi və Energetika Nazirliyinin Enerji Məsələlərini Tənzimləmə Agentliyinin rəsmilərinin də iştirak etdikləri qəbulda Ağsu, Qobustan və Şamaxı rayonlarından olan vətəndaşların müraciətlərinə baxılıb. Vətəndaşların müraciətlərinin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, işə qəbul, qaz xətlərinin yerinin dəyişdirilməsi və müxtəlif məsələlərlə bağlı olub.

"Azəriqaz" İB-nin rəhbərliyi hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Birliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

GƏNCLİYİMİZ GƏLƏCƏYİMİZDİR!

# Azərbaycan gəncliyi bilikli, savadlı, yenilikçi və vətənpərvərdir

***Müsahibimiz Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tələbəsi Elcan Məmmədovdur***



***-Elcan, ilk olaraq özün haqqında danış.***

-Mən, 2000-ci ilin 11-ci ayının 8-ci günündə Bakıda, Əmircan qəsəbəsində dünyaya gəlmişəm. Uşaqlığım loru dildə desək, "kənd uşaq"larının içində keçib. Bağçaya getməmişəm. Hövsanda, 281 saylı məktəbdə orta təhsilimi bitirmişəm. Həyatımın, yaşadığım müddətin ən parlaq günlərini məhz 6 hərflik məktəb sözünün, o sözə məxsus olan binanın içində keçirmişəm. Ən əsası da nədir? "Ana, Vətən!" kəlməsini yazmaq, duymaq, anlamaq. Qarşıma çoxdan məqsəd qoymuşdum. Qoymuşdum ki, "mən jurnalist olacağam!" Bu məqsədə addımladım. Bəlkə də indi Jurnalistika fakültəsinin tələbəsi olaraq qəzetə müsahibə verməyimi, 1 il əvvəl, yuxusuz qaldığım gecələrimə borcluyam. Hansı ki, testlər yazırdım, tarix oxuyurdum, özümü, yeni ədəbiyyatı oxuyurdum. Bacardım! Jurnalistikanın bir parçası oldum...

***-Niyə məhz jurnalistikanı seçdin?***

-İxtisasımı əlbəttə, özüm sevib-seçmişəm. Jurnalistikaya sənət deyənlər də var, ixtisas deyənlər də. Mən həmişə qeyd etmişəm, mən jurnalistikaya peşə deyirəm. Fədakarlıq, iradə, dürüstlük, cəsarət, səmimiyyət, əlbəttə, bir də, vətənpərvərlik sevdası... Biz müharibə şəraitində yaşayırıq. Bizim borcumuz Vətənimizin yaralarına məlhəm olmaqdır. Bu peşəyə məhz millətimin uğrunda şəhid ola biləcək qədər şərəfli, səmimi bir Azərbaycan oğlu, gənci olaraq gəlmişəm. Buna inanıram, özümə inanıram.

***-Elcan, mütaliə üçün zaman ayırırsanmı, son oxuduğun kitab haqqında təəssüratların necədir?***

-Gənclərimizin inkişafı üçün mütaliə mütləq lazımdır. Çünki söz sənəti, yaradıcılıq, ədəbiyyat, bunların hamısı xəzinədir. İstər Azərbaycan, istərsə də xarici ədəbiyyatdan faydalanmaq bizim üçün kifayət qədər önəm daşıyır. Fikrimcə, fərqli janrlarda kitab oxumaq daha faydalıdır. Mən özüm ən çox dedektiv janra üstünlük verirəm. Mütaliə oxumaq jurnalist üçün xüsusilə vacibdir ki, söz bazasını artırır. Ən son oxuduğum kitab Həsən Seyidbəylinin "Cəbhədən cəbhəyə" əsəri olub. Bu kitabdan çıxardığım nəticə budur ki, müharibə təkcə döyüş meydanında olmur. Hətta arxa cəbhədə də dövlətə xəyanət edən dövlətin içindəki düşmənlərə qarşı mübarizə aparılmağından bəhs edir. Hətta bu insan, qardaşın belə olsa...

***- Hansı musiqi janrı, ifaçı sənin iç dünyana daha yaxındır?***

- Musiqi dünyam çox fərqlidir. Çünki dinlədiyim musiqilər keçən əsrin 80-ci, 90-cı illərinə aiddir. Retro, estrada janrında musiqilərə qulaq asıram. Mənim musiqi dünyamı, əlbəttə, Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Flora Kərimova, Elxan Əhədzadə və bir çoxları işıqlandırır. Bəstəkarlara da sevgim çox böyükdür. Emin Sabitoğlu, Elza İbrahimova, Xəyyam Mirzəzadə. Bu insanlar bizim məmləkətimizin, bizim incəsənətimizin əvəzolunmaz sənətkarlarıdır.










***- Azərbaycan bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bir gənc vətəndaş kimi buna münasibətin necədir?***

- Bəlkə bir zamanlar bizi müharibəyə görə, neftimizə görə tanıyırdılar. Dünya xəritəsində kiçik bir ulduz kimi görünsək də, o ulduz keçirilən bu beynəlxalq tədbirlərin nəticəsində bütün dünyaya parladı. Dahi şəxsiyyət Heydər Əliyev də illər əvvəl bu parıltını duyub, hiss edib, demişdir: "Azərbaycan dünyaya günəş kimi doğacaqdır!".

***- Cavablarından da hiss olunur ki, Vətəninə hədsiz bağlısan. Vətən sənin üçün hansı anlamı ifadə edir?***

- Doğma ocaqdan, eldən-obadan və nəhayət, insanın qəlbindən başlanır Vətən! Azərbaycan xalqı hər zaman öz Vətənini sevmiş, onun uğrunda hər bir qəhrəmanlığa, hər cür mübarizəyə hazır olmuş, Vətəni canından əziz tutmuşdur. Qədim və şərəfli tarixə malik Azərbaycan xalqı da öz azadlıq və istiqlaliyyəti uğrunda əsrlərlə mübarizə aparmış, onun naminə minlərlə oğul və qızını qurban vermişdir. Azərbaycanı ucaldan, onu şöhrətləndirən də vüqarlı oğulları, yenilməz qızlarıdır. Hardan başlanıb, harda qurtarsa da, bütövlük, ayrılmazlıq amalında birləşir Vətən!..

***- Elcan, bəs gündəmi haradan izləyirsən?***

-Operativ, dəqiq, obyektiv və qərəzsiz fəaliyyət yolu ilə seçilən xəbər saytları və portallarından izləyirəm. Mənim üçün ən əsas olan odur ki, informasiyanı olduğu kimi qəbul edim. Necə varsa elə də ötürüm. Çünki mən keyfiyyətli xəbəri hər şeydən üstün tuturam. Mən xəbərləri siyasi və ictimai xəbərlər kimi qruplaşdırıram. Siyasi xəbərləri əsasən, rəsmi fəaliyyət prinsipi olan kütləvi informasiya vasitələrindən oxuyuram. İctimai informasiyaları xəbər saytlarından, sosial şəbəkələrdən ( ("Facebook", "İnstaqram" və "Twitter"dən) izləyirəm. Mən ümumiyyətlə, hər şeydən məlumatlı olmağı sevirəm. Bəlkə də bu həm də ixtisasımla bağlıdır. Sanki informasiyasız çox qala bilmirəm. Hər kəsə də tövsiyəm odur ki, çalışın keyfiyyətli xəbərlər oxuyun.

***- Gələcəklə bağlı hansı planların var?***

- Jurnalistika sahəsində sahib olacağım peşəkarlıq statusumla seçilmək istəyirəm. İxtisasımı sevdiyimdən çalışmaq, əziyyət çəkmək, sonunda isə uğur qazanmaq mənim üçün çox da çətin olmayacaq. Yetər ki, mən də gələcəyin əsl jurnalsti ola bilim.

***-Dövlətimizin Azərbaycan gəncləri üçün yaratdığı imkanlar haqqında nə deyə bilərsən?***

-Hər bir azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Doğrudan, Azərbaycan əsl gənclər ölkəsidir. Ölkəmizin inkişafında gənclərimizin rolu böyükdür. Dövlətin gənclərə diqqət və qayğısı onların daha səylə çalışmalarında, davamlı uğurlarında stimulverici amildir. Gənclərimizin reallıqlarımızın təbliğində əhəmiyyətli rolu dövlətimiz tərəfindən daim yüksək dəyərləndirilir. 28 ilə yaxın müstəqillik tariximizin səhifələrini vərəqlədikcə hər günün Azərbaycan gəncliyinin həyatında, ictimai-siyasi fəallığında mühüm rol oynadığını görür və bundan qürur hissi keçiririk.

***-Elcan, gənclərimizə nələri tövsiyə edərdin?***

-Dövlətimizin başçısı İlham Əliyevin Gənclər Gününə həsr olunmuş respublika toplantısında gənclərə bu çağırışını xatırlatmaq istərdim: "Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm." Bəli, gələcəyimiz olan gənclərimiz öz Vətəninə, xalqına inanmalıdırlar. Necə əzmkar, müstəqil, müasir və güclü dövləti olduğunu unutmamalıdırlar. Azərbaycan gəncliyi bilikli, savadlı, müasir dünyagörüşə malik, yenilikçi, ən əsası vətənpərvər olmalı və milli maraqlarımızı qorumalıdır.

**Yaqut Ağaşahqızı, "İki sahil"**

# Rauf Əliyev: Beynəlxalq yarışlar və tədbirlər respublikamızın imicinə müsbət təsir göstərir

Milli Məclisin deputatı Rauf Əliyev İkisahil.TV-yə müsahibəsində Azərbaycanın böyük tədbirlərə ev sahibliyi etməsindən, keçirilən tədbirlərin ölkəmizin imicinə müsbət təsirindən, uğurlu dövlət siyasətindən və bu siyasəti gözü götürməyən antimilli ünsürlərdən söz açdı

***- Rauf müəllim, Azərbaycan olduqca böyük, beynəlxalq miqyaslı yarışlara, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Mayın 29-da növbəti beynəlxalq yarış - UEFA Avropa Liqasının final oyunu uğurla başa çatdı. Ölkəmizə göstərilən bu böyük etimadla bağlı fikirlərinizi bilmək istərdik...***

- Mayın 29-da ölkəmizdə növbəti beynəlxalq yarış uğurla başa çatdı. Artıq neçə illərdir ki, Azərbaycan olduqca böyük, beynəlxalq miqyaslı yarışlara, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Belə mühüm tədbirlərə ev sahibliyi etmək üçün Azərbaycana etimad göstərilməsi təsadüfi deyil. Bu, Azərbaycanın qazandığı mövqeyin, ölkəmizin dünyadakı çəkisinin, beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar qarşısında nüfuzunun ifadəsidir. Azərbaycan bütün istiqamətlərdə özünün dinamik inkişaf modelini ortaya qoyub. Prezident İlham Əliyevin sözləri ilə desək, bu gün Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil, lakin sözümüzün çəkisi böyükdür: "Sözün həqiqi mənasında, ölkəmizin çəkisini, rolunu dünya siyasətində hər bir dövlət görür, qiymətləndirir, Azərbaycanı etibarlı tərəfdaş kimi dəyərləndirirlər." Cənubi Qafqazın lider dövləti olan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə Toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Yəni ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycanda qlobal əhəmiyyətli məsələlər müzakirə predmetinə çevrilir. Bu, hər şeydən əvvəl, Azərbaycana və Azərbaycan Prezidentinə olan yüksək inam və etimadın göstəricisidir. Bu etimad Prezident İlham Əliyevin rəhbərliyi ilə uzun illər ərzində həyata keçirilən uğurlu strateji xəttin real nəticəsidir.

Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsini şərtləndirən mühüm amillərdən biri ölkəmizdə etibarlı sabitlik və təhlükəsizlik mühitinin mövcud olmasıdır. Tolerantlıq nümunəsi olan ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar.

***- Beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsi həm də Azərbaycan həqiqətlərinin, ölkəmizin ədalətli mövqeyinin dünyaya yayılmasında böyük rol oynayır. Bu istiqamətdə maarifləndirmə işləri yetərincə aparılırmı?***

- Düzgün vurğuladınız. Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkə reallıqlarının təbliği baxımından da mühüm əhəmiyyətə malikdir. Çünki beynəlxalq nüfuzlu yarış-



lar zamanı dünyanın nəhəng telekommunikasiya korporasiyaları, mətbuat nümayəndələri, çap və elektron media təmsilçiləri ölkəmizlə bağlı çoxsaylı məlumatları dünyaya yaydılar. Bilirsiniz ki, hər bir turist getdiyi ölkə haqqında informasiyalar toplamaqda maraqlı olur. Bu yarışlarla, tədbirlərlə biz bax bu cür informasiyaların yayılmasına nail oluruq. Son final yarışı 200-ə qədər ölkədə yayımlandı. Eyni zamanda, yarışı izləmək üçün minlərlə turist ordusu Azərbaycana gəldi. Deməliyik ki, bu həm də Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından əla imkandır. Ölkəmizin əleyhdarları haqqımızda təhrif olunmuş, xoşagəlməz məlumatları yayırdılar. Ancaq qonaqlar, turistlər bir daha gördülər ki, Azərbaycan sürətlə inkişaf edən, demokratik azadlıqların qorunduğu, islahatlar gedən bir dövlətdir. Deyir, yüz eşitməkdənsə, bir görmək yaxşıdır, turistlər də gəldilər ölkəmizi, onun inkişafını, bütün gözəlliklərini öz gözləri ilə gördülər. Nəticə etibarilə demək istəyirəm ki, Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər ölkəmiz haqqında formalaşan təəssüratları dəyişir, respublikamızın imicinə müsbət təsir göstərir.

***- Ölkəmizdə uğurlu dövlət siyasəti həyata keçirilir. Ancaq ölkəmizin inkişafı bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Son zamanlar ölkəmizə qarşı xaricdəki antiazərbaycançı mərkəzlər tərəfindən qarayaxma kampaniyası aparılır. Sizcə, bunun kökündə hansı amillər dayanır?***

- Ölkəmizdə bütün sahələri əhatə edən məqsədyönlü islahatlar həyata keçirilir. Azərbaycanın dinamik inkişafı və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə də yüksək qiymətləndirilir. Şübhəsiz ki, Azərbaycanın inkişafından narahat olan qüvvələr də yox deyil. Onlar ölkəmizin əldə etdiyi uğurları həzm edə bilmirlər. Əlbəttə, antimilli mövqedə duran bu satqın qarağüruh dəstələr daxildə və xaricdə Azərbaycanın əleyhinə qarayaxma kampaniyası aparırlar. Ermənipərəst qüvvələr və erməni lobbisi tərəfindən xaricdən ölkəmizə qarşı qarayaxma kampaniyası vaxtaşırı olaraq aparılır. Bu proses bu gün də davam edir. Məsələnin kökündə isə beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi fikir yaratmaq, ölkəmizi iştirakçısı olduğu mühüm beynəlxalq layihələrdən təcrid etmək, ən əsası isə qazanılan uğurlara kölgə salmaqdır.

Bildiyiniz kimi, bu ilin əvvəlindən dövlət başçısının qərarları ilə Azərbaycanda sosial sahədə inqilabi addımlar atılır. Əhalinin rifahının daha da yüksəldilməsi istiqamətində bir çox sosial proqramlar həyata keçirilir. Belə ki, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır, şəhid ailələrinə, əlillərə, məcburi köçkünlərə və bütün həssas qruplara göstərilən diqqət daha da gücləndirilir. Bütün bu addımlar təxminən 3 milyon insanı əhatə edir.

Xaricdəki bəlli dairələr məqsədlərinə çatmaq üçün müxtəlif çirkin metodlardan, o cümlədən xaricdə yaşayan bəzi mühacir azərbaycanlılardan da istifadə etməyə çalışırlar. Ancaq təcrübə göstərir ki, onların səyləri əbəsdir. Çünki onları ölkəmizin daxilində dəstəkləmirlər. Ümumiyyətlə, beynəlxalq aləmi kiminsə Azərbaycan haqqında çirkin fikirləri deyil, real vəziyyət maraqlandırır. Buna görə də ermənipərəst qüvvələrin anti-Azərbaycan kampaniyasının heç bir nəticəsi yoxdur, ola da bilməz.

***- Rauf müəllim, təəssüf doğuran məqamlardan biri də odur ki, bu kampaniyada xaricdə yaşayan bir qrup azərbaycanlı ilə yanaşı, ölkə daxilindəki radikal qruplar da iştirak edir... Sizcə, bu qrupların əməlləri müxalifətçilikdən daha çox satqınlıq deyilmi?***

- Müasir Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, stabil ölkələrdən biridir və xalqımız Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasəti dəstəkləyir, dövlətimizin rəhbərliyinə öz yüksək inam və etimadını qətiyyətlə nümayiş etdirir. Məhz bu səbəblərdən özünü radikal qüvvələr adlandıran tör-töküntülərin Azərbaycanda sabitliyi pozmaq, cəmiyyətdə qarışıqlıq yaratmaq cəhdləri heç bir nəticə vermir, verməyəcək də.

Yaxşı olardı ki, ölkəmizdə görülən bu möhtəşəm işləri anti-Azərbaycan dairələrin əlində alətə çevrilən bəzi "sapı özümüzdən olan baltalar" görsünlər, duysunlar, anlasınlar. Müxtəlif xarici fondlar tərəfindən maliyyələşdirilən bu dəstələr konkret olaraq Azərbaycanın milli maraqlarına zidd mövqedən çıxış edirlər. Bələləri həmişə olub və bundan sonra da olacaq. Amma təbii ki, bütün bu cəhdlər faydasızdır və heç bir nəticə verməyəcək. Çünki Azərbaycan cəmiyyəti artıq keçmişdə mövcud olmuş toplum deyildir, dövlət və dövlətçiliyə yönələn istənilən cəhdi dəf etməyə qadirdir.

*Şəmsiyyə Əliqızı,*
*"İki sahil"*

# Ərzaq və xammal bolluğu yaratmaqdan ötrü...

Lənkəran rayonunun kənd təsərrüfatında əkinlərin fasiləsiz suvarma su ilə təminatı əsasən Xanbulançay dəryaçasının hesabına başa gəlir. Bu nəhəng su anbarı 1976-cı ildə ulu öndər Heydər Əliyevin xüsusi təşəbbüsü əsasında tikilib. Başqa ərzaq məhsullarını demirəm, hələ təkcə bunun sayəsində rayonda tərəvəz istehsalı 200 min tonu, yaşıl çay tədarükü isə 15 min tonu keçib. Beləcə də fəaliyyətə başladığı gündən Xanbulançay Hidroqovşağı rayonun inkişafında çox vacib bir sahəyə çevrilir.

Hazırda mütəxəssislərin dediklərinə görə, burada 52 min kubmetr su ehtiyatı var. Ötən illə müqayisədə isə anbara iki dəfəyə yaxından çox su toplanıb. Su ehtiyatının çoxluğu göstərir ki, Lənkəranda ərzaq və xammal bolluğu yaratmaqdan ötrü əkin altında olan sahələrdə suvarmanın dayanıqlı, mütəşəkkil aparılması artıq problem deyil.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Şeytanla əməkdaşlığın hazır düsturu



**Elçin Zaman**

Ölkəmizdə dağıdıcı müxalifət bundan sonra da antimilli fəaliyyətini davam etdirməyə çalışsa, cəmiyyətimizin onlara münasibəti daha da kəskinləşəcək. Çünki xalqımız aydın şəkildə görür ki, Azərbaycanın dinamik inkişafı, beynəlxalq mövqeyinin mütəmadi olaraq güclənməsi anti-Azərbaycan dairələrdə narahatlıq yaradır və həmin qüvvələr dövlətimizə qarşı ölkə daxilindəki dağıdıcı müxalifətdən istifadə edirlər. Məqsədləri isə birmənalıdır: geosiyasi təzyiqlərlə ölkəmizdə siyasi xaos, iqtisadi tənəzzül yaratmaq.

Təbii ki, həm dağıdıcı müxalifətin, həm də onların xarici havadarlarının bu rəzilliklərinin nəticəsi sıfıra bərabərdir. Ona görə ki, bu gün Azərbaycanda ictimai-siyasi sabitlik mövcuddur və onun milli təhlükəsizliyi etibarlı şəkildə qorunur. Xüsusilə Azərbaycanda xalq- iqtidar birliyinin daha da möhkəmlənməsi bu antimillilərin əl-qolunu bağlayan çox önəmli amilə çevrilib.

Bir sözlə, mövcud daxili siyasi panorama belədir: Azərbaycan xalqı radikal müxalifəti qəbul etmir, "beşinci kolon"un dağıdıcı fəaliyyətinə kəskin etirazını bildirir. Amma nə edəsən ki, onlar bu ictimai qınaqlardan və etirazlardan nəinki nəticə çıxarmırlar, hətta daha da radikallaşırlar. Düzdür, istər dağıdıcı müxalifət, istərsə də onların xaricdəki havadarları anlayırlar ki, onlar o qədər zəifdirlər ki, hətta Azərbaycanda ictimai-siyasi situasiyaya az da olsa təsir edə bilmirlər. Məhz bütün bunları anlayan dağıdıcı düşərgənin nəinki sıravi üzvləri, hətta funksionerləri belə partiyalarından istefa verirlər. Əslində isə bu kütləvi istefalar Azərbaycan vətəndaşlarının bu partiyaların ölkədəki sabitliyi pozmaq istiqamətində fəaliyyətinə sərt mövqe sərgiləməsidir.

Son bir il ərzində dağıdıcı müxalifətin mitinqlər keçirmək həvəsinə düşməsi faktı isə onu göstərir ki, onlar xaricdən alacaqları maliyyə qrantlarının miqdarını artırmaq arzusundadırlar. Baxmayaraq ki, hazırda bu cür aksiyaların keçirilməsi üçün cəmiyyətdə hansısa səbəb yoxdur. O cümlədən seçkilər dönəmi deyil. Əksinə ölkədə çox mühüm iqtisadi və struktur islahatları həyata keçirilir.

Əslində, onların bu mitinq şouları ona hesablanıb ki, özlərinin varlıqlarını xarici havadarlarına göstərsinlər. Onlara fərq etməz mitinqə nə qədər adam gəlib-200, 300... Əsas odur ki, həmin mitinqlərdə hakimiyyətə və Azərbaycan dövlətinə təhqirlər, böhtanlar yağdırılsın, erməni ruhlu bəyanatlar verilsin.

Ən acınacaqlısı isə odur ki, müxalifət başçılarının mitinqdəki çıxışları təkrarçılıqdır. Bu onu göstərir ki, özünü müxalifət hesab edən partiyaların rəhbərləri cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər və onların cəmiyyətdə nöqsan hesab etdikləri məsələlərə bağlı hansısa ciddi təklifləri və proqramları belə yoxdur. Yəni dağıdıcıların hətta son mitinqlərində 25 ildən çox dəyişməyən eyni simalar tərəfindən eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər yenidən təkrarlandı. Çıxışları, irəli sürdükləri iddialar bir daha təsdiq etdi ki, onlar dağıdıcılıq əməllərindən, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər.

Ən böyük rəzillik isə odur ki, dağıdıcı düşərgənin "başbilənləri" öz iddialarını reallaşdırmaq üçün Azərbaycanın Suriyanın, Liviyanın və digər hazırda vətəndaş qarşıdurması gedən digər ölkələrin vəziyyətinə düşməsini arzulayırlar. Sosial dayaqlarını itirmiş radikal müxalifət başçıları və onların azsaylı tərəfdarları iqtidarın uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın hərtərəfli inkişafını gördükləri və bu vəziyyətin onların hakimiyyətə gəlmək perspektivlərinin üzərindən birdəfəlik xətt çəkdiyini dərk etdikləri üçün anti-Azərbaycan, o cümlədən ermənipərəst dairələrlə işbirliyinə gedirlər. Çünki özləri demişlər, məqsədlərinə çatmaq üçün şeytanla da əməkdaşlığa hazırdırlar.



# Zavallı ölkənin bugünkü gerçəklikləri

Nilufər Mustafaqızı

İşğalçı Ermənistanda yarıtmaz hökumətin bacarıqsızlıqları davam etdikcə xalq arasındakı narazılıqlar da güclənir. Hakimiyyətə gəldiyi hələ ilk ildə bu qədər problemlərlə üzləşən Paşinyan hökumətinin gülünc vəziyyəti sadə erməni xalqını çiləden çıxarıb desək, tam olaraq yerinə düşərdi. İctimai-siyasi vəziyyətin gərgin olaraq davam etməsi bu dəfə də Nikol Paşinyanın əleyhdarlarını nümayişlər keçirməyə sövq edib.

Daşnaklar və onları dəstəkləyən qruplar yeni hökumət əleyhinə itaətsizlik aksiyalarına başlayıblar. Aksiya iştirakçılarının yeganə tələbləri isə Paşinyan və onun komandasının tez bir zamanda istefaya getmələridir. Narazı kütlənin fəallarından olan Menua Arutunyan iddia edir ki, yeni rejim də ölkəni fəlakətə, uçuruma sürükləyir. Erməni mətbuatının məlumatlarına görə, M.Arutyan bildirib ki, onlar bu qədər özbaşınalığa göz yuma bilmirlər. “Paşinyan və onun komandası etibarını itirib. Bu şəxs hakimiyyətə sanki qisas məqsədi ilə gəlib.”

Öz çıxışında N.Paşinyanın elə hakimiyyətə gəldiyi ilk gündən indiyə qədər olan fəaliyyətini göz önünə sərərək analiz edən M.Arutyan bildirib ki, ölkədə hadisələrin təhlilini aparmaq belə biabırçılıqdır. Parlamentdə ilk dəfə olaraq beşpartiyalı sistemdən üçpartiyalı sistemə keçilməsi, deputatların sayının 111-dən 222-yə çatdırılması Paşinyanın məqsədyönsüz, uğursuz siyasətinin göstəricisidir. Onsuz da ölkəni ağuşuna alan sosial sıxıntıların mövcudluğu, eyni zamanda xarici borcun girdabında üzən bir ölkə üçün bunların gərəksiz addımlar olduğunu deyən M.Arutyan vəziyyətin belə davam edəcəyi təqdirdə Ermənistanı daha da ağır günlərin gözlədiyini söyləyib.

N.Paşinyanın hakimiyyəti ilinə təsadüf edən növbəti uğursuzluqlardan biri də “Daşnaksütyun” partiyasının parlamentdə təmsilçilik hüququnu itirməsidir. Ümumiyyətlə, bu siyasi təşkilata qarşı ölkədə son vaxtlar repressiyalar başlayıb deyən aksiya iştirakçıları Paşinyan və onun tərəfdarlarının daşnaklara qarşı çıxmaları ilə bağlı olan narahatçılıqlarını bildiriblər. Onlar bu siyasi təşkilatın üzvlərini satqınlıqda günahlandırırlar və bildirirlər ki, Daşnaksütyun partiyası uzun illərdir ki, Koçaryan-Sarkisyan qruplaşması ilə birləşərək ölkəni talamaqla məşğul olub. Ermənistanın bugünkü ağır vəziyyətinin yeganə günahkarı onlardır. Bu səbəbdən də yeni hökumət iqtisadi islahatlardan əvvəl keçmiş hərbi xunta rejiminin üzvlərini zərərsizləşdirir.

Sadalanan bu faktlar bir daha sübut edir ki, Ermənistan həqiqətən məhvə məhkum olan və zavallı bir ölkədir. Sadəcə bir il hakimiyyətdə olaraq bu qədər uğursuzluqlara imza atmaq isə elə ancaq erməni xalqının nümayəndəsinə yaraşa biləcək bir “qabiliyyət” ola bilərdi.

## Hadi Rəcəbli:

# Azərbaycan vətəndaşı əmindir ki, ən çətin məqamda Prezidenti onun yanındadır

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru Hadi Rəcəbli İkisahil.TV-yə açıqlamasında parlamentin yaz sessiyasının başa çatmasından, cari ildə həyata keçirilən uğurlu islahatlardan və radikal müxalifətin hər zamankı kimi satqın fəaliyyətindən söz açdı***



Hadi Rəcəbli bildirdi ki, Azərbaycan Milli Məclisinin yaz sessiyası başa çatıb. Azərbaycanda həyata keçirilən iqtisadi və struktur islahatları nəticəsində son dövrlər büdcə gəlirlərinin artması, maliyyə imkanlarının genişlənməsi sosial sahəyə daha çox diqqətin göstərilməsinə təkan verib. Prezident İlham Əliyevin sosial islahatlar paketi bilavasitə Azərbaycan vətəndaşının qayğılarının azaldılmasına, bərabər imkanlar yaradılmasına, sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Nəticədə cari ilin əvvəlindən sosial sahədə ard-arda islahat xarakterli addımların atılmasına başlanıb. 11 min manat məbləğində birdəfəlik ödəmə hüququ olan şəhid ailələrinin əhatə dairəsinin genişləndirilməsi, minimum əməkhaqqının yaşayış minimuma çatdırılması, pensiya, sosial müavinət və təqaüdlərin artırılması, yeni təqaüd formalarının yaradılması, problemli kreditlərin həlli bu istiqamətdə həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Deməк olar ki, sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahına ciddi dəstək oldu. 2025-ci ilədək Azərbaycan qarşısına məqsəd qoyub ki, dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxsın. 2016-cı ildə cənab Prezidentin Sərəncamı ilə Azərbaycan Milli İqtisadiyyatının İnkişafı üzrə 11 istiqamət üzrə Strateji Yol Xəritəsi qəbul edilib. Strateji Yol xəritələrində məqsədlərdən biri 2025-ci ildə minimum əmək haqlarını orta aylıq əmək haqqlarının 60 faizinə çatdırmaqdır. Bu da inkişaf etmiş ölkələrin göstəricilərindən biridir.

H.Rəcəbli qeyd etdi ki, Azərbaycan öz müstəqilliyinin 28-ci ilini yaşayır. Fərəhli haldır ki, bu 28 illik müstəqilliyimizin 26 ilini ulu öndər Heydər Əliyev siyasi kursu ilə davam edirik. Bu illərdə xalqımız əmin oldu ki, cənab Prezident verdiyi sözünə də, vədinə də sadiqdir. Ölkəmiz özünün yeni intibah mərhələsinə qədəm qoyub. Son illər böyük inkişaf yolu keçən Azərbaycan bir çox sahələrdə mühüm uğurlara imza atmışdır. Bu fakt da təbii ki, dünya ictimaiyyətinin diqqətindən kənarda qalmamışdır. Unutmaq olmaz ki, beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkədə siyasi sabitliyin önəminə xüsusi fikir verirlər. Azərbaycan bu gün ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında aparıcı yerlərdən birini tutur. Məhz elə bu səbəbdəndir ki, son illərdə Azərbaycanda beynəlxalq təşkilatların bir çox siyasi, iqtisadi və idman tədbirləri keçirilmişdir. Bu tədbirlərin Azərbaycanda keçirilməsi bütün sahələrdə ölkəmizə böyük nüfuz qazandırıb.

H.Rəcəbli vurğuladı ki, bu gün dövlət başçısının siyasətinin təməlində idarəetmədə maksimum şəffaflığın təmin edilməsi və vətəndaş məmnunluğunun əldə edilməsi dayanır. Azərbaycanın regionlarının sənayeləşməsi prosesi gedir. Kənd təsərrüfatının inkişafı istiqamətində böyük layihələr icra edilir. Aqroparklar və iri fermer təsərrüfatlarının yaradılması prosesinə başlanıb. Regionlarda yeni emal sənayesi müəssisələri, saxlama kameraları, logistik mərkəzlər tikilir ki, bu da ölkədə kənd təsərrüfatı məhsullarının itkisiz tədarükünə şərait yaradır. Bu gün elektron kənd təsərrüfatının yaradılması istiqamətində işlər aparılır. Bütün bunların hamısı idarəetmə sisteminin təkmilləşdirilməsi, daha keyfiyyətli, daha məqsədyönlü və daha çevik idarəetmə sisteminin qurulması istiqamətində görülən işlərdir. Regionların tərəqqisi nəticəsində turizmin inkişafında böyük irəliləyişlər var. Regionlarda təbiətin zənginliyi və rəngarəngliyi turizmin müxtəlif növlərinin inkişafına geniş imkanlar yaradır. Bu sahədə Quba, Xaçmaz, Qusar, Lənkəran, Qax rayonlarında həyata keçirilən tədbirlər təqdirəlayiqdir. Həmin bölgələrdə yerli əhali artıq kənd turizmi ilə məşğul olaraq ilin bütün mövsümlərində yerli və xarici turistlərə yaşayış, yemək, hətta ekskursiya xidmətləri göstərirlər.

Hadi Rəcəbli xüsusi olaraq vurğuladı ki, Azərbaycan istənilən mühüm proseslər astanasında olarkən ölkəmizə qarşı hücumlar başlayır. Yerli “5-ci kolon” da onlara dəstək verir: “Məkrli niyyətlərlə hər zaman ölkəmizə şərböhtan atan qüvvələr çalışırlar ki, Azərbaycanın xeyrinə olan məsələlər reallaşmasın. Ölkə başçısının apardığı islahatlar anti-Azərbaycan şəbəkəni, onların daxildəki buyruq qullarını çox narahat edir. Ancaq onlar da yaxşı bilirlər ki, hər zaman məğlub olublar. Ucuz qarayaxma kampaniyasına əl atmaqla heç nəyə nail olmayacaqlar”.

Şəmsiyyə Əliqızı,
*“İki sahil”*

# Paytaxt sakinlərinə “yaşıl hədiyyə”

*Bura yaşıl möcüzədir, möcüzə,*
*Heyrətimin zirvəsinə çatmışam.*

Yasamal rayonunun “Sovetski” kimi tanınmış məhəlləsində yenicə istifadəyə verilmiş istirahət zonasını-parkı görəndə bu məşhur misralar dərhal yada düşür. Qadir əllərin yaratdığı gülüstan sözün əsl mənasında insanı heyrətləndirir. Burada salınmış çəmənliklər, ağaclar, əlvan rəngli gül-çiçəklər sakinlərin əhval-ruhiyyəsini daha da yüksəldir. Xatırladaq ki, vaxtilə yaraşıqsız və köhnə tikililərlə, uçuq-sökük ticarət köşkləri ilə şəhərin görkəminə xələl gətirən məhəllənin yerində indi göz oxşayan gözəl mənzərə canlanır.

Hazırda bu “yaşıl möcüzə”ni görməyə gələnlərin sayı gündən-günə artır. Qocaların və balacaların sevincini duymaq üçün onları burada görmək lazımdır. Şəhərin hər yerindən parka gələnlər var. Nizami rayonunun sakini, yaşı altmışı haqlamış Qənifə Məmmədova şəhər sakinləri üçün yaradılmış bu şəraitdən razılığını belə bildirdi:



-Hörmətli Prezidentimiz İlham Əliyevə minnətdaram ki, bizim üçün belə gözəl şərait yaradıb. Bir çox yeni obyektlərin açılışında iştirak edən Prezidentimizin sözləri sübut edir ki, sürətlə müasirləşən Bakı şəhəri lap yaxın zamanda dünyanın ən gözəl şəhərlərindən biri kimi məşhur olacaq. Mən bura nəvəmlə gəlmişəm. Yeddi yaşlı Aminəmin sevincinin həddi-hüdudu yoxdur. Bura uşaqlara gözəl hədiyyədir. Karusellər, nənnilər, yelləncəklər, köşklər, diyircəklər, velosipedlər, divar rəsmləri, ot örtüklü meydançalar, bir sözlə, müxtəlif əyləncə və idman avadanlıqları uşaqlar üçün çox maraqlıdır.

Səbail rayonundan olan gənc ailə Əsmər və Ramal Şəmsəddinovlar dörd yaşlı Şəmsəddini bura əylənməyə gətiriblər. Gördüyü əsrarəngiz mənzərədən sevinən balaca Şəmsəddinə yəqin ki, buradakı əyləncə vasitələrindən qiymətli heç nə ola bilməz. O, gah bu, gah da digər əyləncə vasitəsinin yanına qaçaraq onların hamısı ilə oynamağa can atırdı.

Ramal bildirdi ki, iki saatdan artıq vaxt keçirsələr də, balaca oğlan əyləncələrdən ayrılıb getmək istəmir.

Axşam düşən kimi parkın yaxınlığındakı məhəllələrdən əhali axışıb təmiz və sərin havası olan bu yerə gəlir. Skamyalarda, ağacların kölgəsində, göy otun üstündə əyləşib söhbət edir, çay içir, idmanla məşğul olur, nərd, şahmat oynayırlar. Söhbətlərin əksəriyyətinin mövzusu əsasən eyni olur. Hamı onlar üçün yaradılmış şəraitə görə dövlətimizə öz minnətdarlığını bildirir, yeni salınmış gülüstanı özlərinə ən gözəl hədiyyə hesab etdiklərini söyləyir.

Vəli İlyasov,
*“İki sahil”*

# Qobustan Regional Təlim Mərkəzi və Kadr Hazırlığının Təşkili Mərkəzinə şagird qəbulu üçün müsabiqə keçirilir




SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Qobustan Regional Təlim Mərkəzi və Kadr Hazırlığının Təşkili Mərkəzinə şagird qəbulu üçün müsabiqə keçirilir.

Müsabiqədə iştirak etmək istəyənlər Azərbaycan Respublikasının vətəndaşı olmalı, 15.09.2019-cu il tarixinədək 29 yaşı tamam olmamalıdır. Hazırda təhsilini davam etdirən və ali təhsili olan gənclər müsabiqəyə müraciət edə bilməzlər. Müsabiqədə iştirak etmək istəyən kişilərin həqiqi hərbi xidmət keçməsindən asılı olmayaraq hərbi bileti olmalı, tibb müəssisəsindən sağlamlıq haqqında arayış təqdim etməlidirlər.

Təlim Mərkəzinə aparatçı, əl ilə qaynaqda elektrik qaynaqçısı, elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru, elektrik qaz qaynaqçısı, izolyasiyaçı-örtükçü, kimyəvi analiz laborantı, nasos qurğusu maşinisti, neft və qaz hasilatı üzrə operator, neft və qaz quyularının qazılması üzrə qazmaçı köməkçisi, nəzarət ölçü cihazıları və avtomatika üzrə çilingər, polad və dəmir konstruksiyaların quraşdırılması üzrə quraşdırıcı, qablaşdırma üzrə operator, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, qazla kəsən, süzücü-tökücü, takelajçı, təmirçi çilingər, texnoloji qurğuların operatoru, texnoloji qurğuların təmiri üzrə çilingər və tornaçı, frezerçi peşə ixtisasları üzrə ümumilikdə 314 şagird qəbul olunacaqdır. Təhsil müddəti peşədən asılı olaraq 6 ay və ya 1 ildir.

Müraciətlər elektron formada qəbul olunur. Tələb olunan sənədlər və qaydalar haqqında məlumatı www.socar.az internet səhifəsinin “KARYERA” bölməsinin “TƏLİM MƏRKƏZLƏRİNƏ SƏNƏD QƏBULU” keçidinə daxil olaraq əldə edə və müvafiq qaydada müraciət edə bilərsiniz. Müraciət üçün son tarix: 17 iyun 2019-cu il.

Xatırladaq ki, qanunvericiliyə müvafiq olaraq qadın əməyinin tətbiqi qadağan olunduğu peşələr üzrə yalnız kişilər qəbul olunacaqdır. Təhsil müddətində şagirdlərə aylıq təqaüd, xüsusi yay və qış geyimləri, gündəlik nahar veriləcək. Qobustan Regional Təlim Mərkəzində təhsil alacaq şagirdlər nəqliyyatla təmin olunacaqlar. Qəbulla bağlı hər hansı sualı olan vətəndaşlar tm@socar.az elektron poçt ünvanı ilə əlaqə saxlaya bilərlər.

Xüsusi qeyd: SOCAR təlim mərkəzlərini bitirən şagirdlərin işlə təminatı ilə bağlı hər hansı öhdəçilik daşımır.

# SOCAR və BP birgə neft-kimya kompleksinin tikintisini planlaşdırır




“Star” neft emalı zavodu işə salınma mərhələsindədir.

Bunu “SOCAR Turkey” şirkətinin xarici əlaqələr üzrə rəhbəri Murat Lekompte Trend-ə özəl müsahibəsində deyib.

Onun sözlərinə görə, zavodda sınaq prosesi demək olar ki, başa çatıb: “Bütün bölmələr istifadəyə verilib, istehsal faktiki olaraq başlayıb. Zavodda reaktiv yanacaq, dizel yanacağı, mayeləşdirilmiş karbohidrogen qazı və digər məhsullar istehsal olunur”.

M.Lekomptenin sözlərinə görə, bu ilin sonunadək zavodda 8 milyon tonadək xam neft emal olunacaq.

“Petkim” neft-kimya kompleksi barədə danışan rəsmi bildirib ki, müəssisə Türkiyədə ən iri neft-kimya məhsulları istehsalçısıdır: “Hazırda müəssisə bazarda tələbatın təxminən 20 faizini təmin edir. Türkiyədə ”Petkim”in müştəriləri 2500-3000 nəfərdir. Ölkə xaricində ”Petkim” 11 ölkəyə məhsul ixrac edir. Kompleks 20-dən çox müxtəlif məhsul istehsal edir”.

SOCAR-ın Türkiyəyə yatırdığı investisiyaları barədə danışan M.Lekompte vurğulayıb ki, şirkət bu ölkədə ən iri beynəlxalq investordur: “Türkiyəyə ən iri investisiyalar faktiki olaraq Azərbaycandan, SOCAR-dan daxil olur. 2008-ci ildən SOCAR Türkiyədə işə başlayandan bu günədək investisiyaların ümumi həcmi 15 milyard dollar təşkil edib. Əgər planlaşdırılmış məbləğləri əlavə etsək, 19,5 milyard dollar rəqəmini əldə edirik. 2020-ci ildən başlayaraq yeni neft-kimya zavodunun tikilməsi planlaşdırılır. Hazırda bunun üzərində işləyirik, bu işə 2-3 il vaxt gedəcək. Bu, “SOCAR Turkey” ilə BP-nin birgə layihəsidir”.

# Sankt-Peterburqda MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının 26-cı iclası keçirilib

## *AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iclasda çıxış edib*




**Rusiyanın Sankt-Peterburq şəhərində MDB iştirakçısı olan ölkələrin Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXVI iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, İnformşuranın sədri, TASS agentliyinin baş direktoru Sergey Mixaylov iclası açıq elan edərək gündəlikdə duran məsələnin Böyük Vətən müharibəsində Qələbənin qarşıdan gələn 75-ci ildönümü ilə bağlı hazırlıq işlərinin müzakirəsi olduğunu qeyd etdi. O, TASS agentliyinin bu istiqamətdə gördüyü və görəcəyi işlərdən danışdı, Qələbənin yubileyinin yüksək səviyyədə qeyd olunması üçün birgə səy göstərməyin vacibliyini bildirdi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov iclasda çıxış edərək gündəlikdə duran məsələnin əhəmiyyətini qeyd etdi, bu sahədə uğur qazanmaq üçün üzv agentliklərin birgə səy göstərməsinin vacibliyini vurğuladı.

“Gündəlikdə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı məsələ var. Bu tarixi hadisə bizim xalqlarımızın həyatında dərin iz buraxıb, hər birimizin ailəsinə, yaxınlarının və dostlarının ailələrinə təsir edib. Azərbaycan da bu Qələbəyə töhfə verən ölkələrdən biri kimi onu yüksək səviyyədə qeyd edir, veteranlarımıza hörmət və qayğı göstərilir. AZƏRTAC olaraq biz Şuranın bununla bağlı layihələrində yaxından iştirak edəcəyimizi və öz tərəfimizdən informasiya dəstəyini göstərməyə hazır olduğumuzu bildiririk”, - deyə A.Aslanov əlavə etdi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, həmçinin İnformşuraya üzv agentliklər arasında yeni mübadilə üsullarından da danışaraq qeyd etdi ki, biz mətnli və foto informasiya mübadiləsini həyata keçiririk. Artıq həm də videoxəbərlərin mübadiləsinin vaxtı yetişib və bununla bağlı təşkilati işləri sürətləndirmək lazımdır. Bunun üçün hər hansı vahid platforma və ya mövcud platformanın təkmilləşdirilməsi üzərində düşünə bilərik. Artıq üzv agentliklərin əksəriyyətində videoxəbər istehsal edilir. Bu məsələni də diqqətdə saxlamağa dəyər.

Belarus Teleqraf Agentliyinin baş direktoru İrina Akuloviç də öz növbəsində Qələbənin 75 illiyinə hazırlıqla bağlı görülən işlərdən, ölkəsində müharibə veteranlarına göstərilən diqqət və qayğıdan danışdı. O, həmçinin cari il iyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarına da toxundu. “Bakı 2015” birinci Avropa Oyunları zamanı Azərbaycan heykəltəraşları tərəfindən müxtəlif idman növlərinə aid yaradılan heykəllərin Belarusda keçirilən “İdman - yüksək incəsənət” sərgisində nümayiş olunduğunu diqqətə çatdırdı və bununla bağlı Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.

Mövzu ətrafında digər çıxış edənlər Qələbənin 75 illiyi münasibətilə keçiriləcək tədbirlərə hazırlıq məsələlərindən danışdılar, bu istiqamətdə təkliflərini bildirdilər. Həmçinin müharibə veteranlarının hələ heç yerdə görünməmiş fotolarından ibarət sərginin yaradılması təklif olundu.



TASS agentliyinin MDB və Baltik ölkələri sektorunun rəhbəri Boris Qruşin İnformşuranın layihələrinin reallaşdırılması barədə ətraflı məlumat verdi. B.Qruşin AZƏRTAC-ın bu işə böyük töhfə verdiyini vurğuladı, digər agentliklərə də informasiya mübadiləsi sahəsində yaxından iştirak etməyi tövsiyə etdi.

* * *

**İclasdan sonra MDB iştirakçısı olan ölkələrin Dövlət İnformasiya Agentliklərinin rəhbərləri Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında iştirak etdilər.**

Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında çıxış edən Rusiya Prezidenti Vladimir Putin bildirdi ki, XX əsrdə formalaşmış qlobal inkişaf modeli müasir iqtisadi reallıqlara uyğun gəlmir. Dünyada qeyri-sabitliyin başlıca mənbəyi yeni texnoloji dalğanın inhisarlaşdırılması cəhdləridir. Rusiya dövlətinin başçısı həyati vacib istehlak mallarını, o cümlədən dərman preparatlarının ticarət müharibələrinin təsirindən çıxarılmasını da təklif etdi.

Tədbirdə Çin Xalq Respublikasının Sədri Si Cinpin, Bolqarıstan Prezidenti Rumen Radev, Slovakiyanın Baş Naziri Peter Pelleqrini, BMT-nin Baş katibi Antonio Quterreş çıxış edərək iqtisadi əməkdaşlığın genişləndirilməsi yolları, miqrasiya problemləri, iqlim dəyişikliklərinin törətdiyi risklər və digər mühüm məsələlərə toxundular.

# SOCAR-ın TENDERLƏRİ



## Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

**NFC tipli abonent smart kartla əməliyyat aparan, qabaqcadan ödəniş modulu ilə təchiz edilmiş, məişət qaz sayğaclarına və NFC tipli abonent smart kartlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (№ 10004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı (forma əlavə olunur);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 28.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 10.07.2019-cu il, Bakı vaxtı ilə saat 16:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqədə iştirak edəcək iddiaçı şirkətlər Satınalan təşkilat tərəfindən ixtisas uyğunluğuna görə pre-kvalifikasiya mərhələsindən keçəcəkdir.***

***IV. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 10.07.2019-cu il, Bakı vaxtı ilə saat 16:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***V. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı

Lot 1 - 10620 manat (ƏDV ilə)
Lot 2 - 590 manat (ƏDV ilə)
Lot 3 - 944 manat (ƏDV ilə)

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

AZN
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab:
AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

ABŞ dolları
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT:İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

AVRO
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***VI. Digər təminatlar:***

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VII. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu müqavilənin ümumi məbləğinin 50%-nə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VIII. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsi bağlandıqdan sonra aşağıdakı qrafikə uyğun icra edilməlidir:

| S/S | Ay, il | G-4 sayğacın tədarük sayı | G-6 sayğacın tədarük sayı | NFC Smart kartın tədarükü |
|---|---|---|---|---|
| 1 | İyul 2019 | 30000 | 1500 | 15000 |
| 2 | Avqust 2019 | 30000 | 1500 | 15000 |
| 3 | Sentyabr 2019 | 30000 | | 15000 |
| 4 | Oktyabr 2019 | 30000 | | 15000 |
| 5 | Noyabr 2019 | 30000 | | 10000 |
| 6 | Dekabr 2019 | 30000 | | 10000 |
| 7 | Yanvar 2020 | 30000 | | 10000 |
| 8 | Fevral 2020 | 30000 | | 10000 |

***IX. Satınalan təşkilatın ünvanı:***

AZ1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 121.
SOCAR, Baş ofis, SOCAR Tower, 24-cü mərtəbə
**Əlaqələndirici şəxs:**
Axundova Gülsüm
Təchizat İdarəsinin böyük mühəndisi
Telefon: (+99 412) 521-02-59
gulsumakhundova@socar.az

***X. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***XI. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 11.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın IX qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***XII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar qrupu**



## "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**Qazma preventorunun, Qaz karotaj stansiyasının və Qazma borularının kirayələnməsinə, Qazma briqadası, Sementləmə və digər xidmətlərin satınalınmasına olan tələbatını təmin etmək məqsədi ilə Açıq Müsabiqə (PQ-001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 02 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) olmaqla 05 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Təklifin təminatı:***

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin icrasına işlərə başlandıqdan sonra 2 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbə
Əlaqələndirici şəxs: Ümüd Cəfərov
Əlaqələndirici şəxsin vəzifəsi: "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 00 00 (27369)
Mob: (+994 50) 558 00 07
E-mail: tenders@socar-umid.com

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.azerweb.com;
www.ikisahil.az;
www.socar.az;

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

* Zərflərin açılışı 05 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

* Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə ediləcək: tenders@socar-umid.com

**"Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

# Bakı Olimpiya Stadionu dünyanın ən yaxşıları sırasındadır

**Bakı Olimpiya Stadionu ən yaxşı idman qurğusu kimi UEFA-nın Elit Stadionları siyahısına daxil edilib**

İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya idman mərkəzi yaradılmış, paytaxt Bakıda isə dünya səviyyəli idman qurğuları - Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı tikilib istifadəyə verilmişdir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib desək, yanılmarıq. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, ötən il BMX velosipedi, eləcə də cüdo üzrə dünya çempionatlarının, gimnastika üzrə mötəbər turnirlərin, habelə Formula-1 Azərbaycan Qran-prilərinin yüksək səviyyədə təşkil olunmasına imkan verdi.



Zəngin və güclü idman ənənələri, peşəkar təşkilatçılığı ilə dünya idman ailəsində söz və nüfuz sahibi olan Azərbaycan bu il daha bir neçə mötəbər idman yarışına ev sahibliyi etdi. Dünyanın ən möhtəşəm idman qurğularından biri olan Bakı Olimpiya Stadionunda baş tutan mötəbər və nüfuzlu futbol yarışlarından biri olan UEFA Avropa Liqasının final matçı da bu qəbildəndir. Yüksək standartlara uyğun şəkildə tikilmiş və dizayn edilmiş, ən müasir texnologiyalarla və infrastrukturla təchiz olunmuş Bakı Olimpiya Stadionu yenidən beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gəldi. Zəngin mədəniyyət və mükəmməl infrastruktur sərgiləyən Azərbaycan dünyaya sözün yaxşı mənasında meydan oxudu. AFFA-nın və Yerli Əməliyyat Komitəsinin əməkdaşlarının peşəkar təşkilatçılığı, hüquq mühafizə orqanlarımızın yüksək təhlükəsizlik tədbirləri, KİV nümayəndələrinin media işi, könüllülərimizin tamaşaçı xidmətləri və stadionu dolduran azarkeşlərin dəstəyi nəticəsində Bakı mötəbər idman tədbirlərinə ev sahibliyi etməyə daim hazır olduğunu bir daha sübut etdi.

Qeyd edək ki, Bakı Olimpiya Stadionu 2015-ci ildən fəaliyyətə başlayıb və hər il azı bir beynəlxalq turnirə ev sahibliyi edir. Stadionun tutumu 68700 nəfər təşkil edir. Müasir görünüşlü stadion onu seyr edənlərə sanki burada idmandan daha artığını tapa biləcəklərin nümayiş etdirir. Bakı Olimpiya Stadionu 2015-ci ildə baş tutan Bakı-2015 1-ci Avropa Oyunlarının əsas idman məkanı kimi istifadə edilib və eyni tədbirin açılış və bağlanış mərasimlərinə və atletika idman növünə ev sahibliyi edib.

Bu möhtəşəm idman qurğusu dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Layihə bir sıra parametrlərinə görə artıq dörd ildir nüfuzlu beynəlxalq müsabiqələrin qalibi seçilir. Belə ki, 2015-ci ildə inşaat sahəsində böyük nüfuza malik "Engineering News Record" jurnalının (ENR) "İlin ən yaxşı inşaat və dizayn layihələri" müsabiqəsində "İdman və əyləncə qurğuları" nominasiyasında qalib gəlmiş Bakı Olimpiya Stadionunun nailiyyətləri sırasına yeniləri əlavə olunmuşdur. Stadion 2016-cı ilin mart ayında Amerika Mühəndislik Şirkətləri Şurası (American Council of Engineering Companies - ACEC) tərəfindən struktur üzrə ən yaxşı layihə elan olunmuşdur. Amerikada mühəndislik xidmətləri şirkətlərini bir araya gətirən bu nüfuzlu təşkilat hər il birləşdirdiyi şirkətlərin iri layihələri arasında müsabiqə keçirir. Bakı Olimpiya Stadionu bu layihədə struktur üzrə mühəndislik xidmətlərini yerinə yetirmiş Thornton Tomasetti şirkətinin müraciəti əsasında iştirak etmişdir. Həmçinin 2017-ci ildə Qətərin paytaxtı Doha şəhərində keçirilən Dünya Stadionlar Konqresində Bakı Olimpiya Stadionu "Dünyanın ən yaxşı yeni stadionu" adına layiq görülmüşdür.

Budur, Bakı Olimpiya Stadionu yenə də dünyanın ən yaxşıları sırasındadır. Növbəti mükafat UEFA (Union of European Football Associations) tərəfindən gəlib. Bakı Olimpiya Stadionunun mətbuat xidmətindən verilən məlumata görə, Bakı Olimpiya Stadionu aralarında "Allianz Arena", "Aviva Stadium", "Kamp Nou" və "Santiago Bernabeu" kimi dünyaca məşhur stadionlar olan UEFA-nın Elit Stadionları siyahısına daxil edilib.

Xatırladaq ki, Bakı Olimpiya Stadionu gələn il UEFA-nın 60 illiyi münasibətilə ilk dəfə olaraq 12 müxtəlif stadionda keçiriləcək "Avro 2020"nin əsas stadionlarından biridir. Burada üç qrup matçı və bir 1\4 final qarşılaşması oynanılacaq.

**Sevinc Azadi,**
***"İki sahil"***

*Elçin Əhmədov:*

# Fransa məhkəməsinin qanunsuz sənədi ləğv etməsi Azərbaycan rəhbərliyinin uğurlu siyasətinin nəticəsidir

**Fransanın Val-d'Oise departamentinin inzibati məhkəməsi qondarma Dağlıq Qarabağ separatçıları ilə Arnuvill şəhəri arasında imzalanmış "dostluq xartiyası"nı ləğv edib. Bu "sənəd" Fransanın Arnuvill şəhərinin meri ilə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xocavənd rayonunun "rəhbəri" arasında 2018-ci ilin oktyabrında imzalanmışdı. Məhkəmənin qərarı ilə Arnuvill merinə qarşı Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə ittiham irəli sürülüb və o, təqsirli bilinib.**

***Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov bildirib.***

E.Əhmədov deyib ki, Ermənistan belə "sənədlər"in imzalanması ilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış separatçı rejimin tanınmasına nail olmağa çalışır. Bu, həm də qondarma rejimin "nümayəndələri"nin xarici ölkələrə (2018-i ildə Brüssel, Vaşinqton və ya Moskvaya) qanunsuz səyahətləri vasitəsilə həyata keçirilir. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni əməllər, xüsusilə məskunlaşdırma siyasətinin aparılması və demoqrafik tərkibin qəsdən dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi ciddi narahatlıq doğurur. Erməni lobbisinin ianəsi hesabına bu addımların atılması Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış qondarma rejimin müstəqil olduğu görüntüsünü yaratmaq məqsədini daşıyır. Şübhəsiz ki, Ermənistan rəhbərliyinin əsas məqsədi işğal və hərbi təcavüzün məsuliyyətindən qaçmaq üçün Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməyə çalışmaqdır.

Bir qədər əvvəl, Fransanın Sent-Etyen şəhər merinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərini xatırlayaq. Azərbaycanın Dağlıq Qarabağ icması hətta Sent-Etyen şəhər merinə müraciət də ünvanladı. Həmin vaxt Sent-Etyenlə Azərbaycanın işğal olunmuş Şuşa şəhəri arasında "dostluq haqqında razılaşma" imzalanıb. Fransa şəhərləri ilə separatçı rejim arasında imzalanan bu cür "sənədlər" çoxdur. Bu, Fransada güclü erməni lobbisinin mövcudluğunun sübutudur.

Fransanın Arnuvill şəhərinin meri Paskal Doll ilə Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş Xocavənd rayonunun "rəhbəri" arasında imzalanmış "Dostluq haqqında xartiya" da bunlardan biridir. Azərbaycan tərəfi dəfələrlə Fransaya bu məsələ ilə bağlı etirazını bildirib.

Mayın 29-da məhkəmə prosesi sona çatıb və cari il iyunun 4-də bu "sənəd"in ləğvi ilə bağlı qərar qəbul olunub. Bu da erməni lobbisinin güclü olduğu hətta Fransada belə həqiqətlərin artıq qəbul edildiyini göstərir. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin, beynəlxalq tribunalardan dəfələrlə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bəyan etməsinin nəticəsidir.

Dünyada heç bir dövlət Ermənistan tərəfindən işğal olunaraq Azərbaycan ərazilərində hərbi güc hesabına yaradılmış separatçı rejimi tanımayıb. Buna görə də separatçı rejimin nümayəndələri tərəfindən imzalanmış hər hansı bir "sənəd" qanunsuzdur və heç bir hüquqi əhəmiyyət daşımır. Bu "sənəd"in ləğvi Azərbaycan hökumətinin apardığı uğurlu siyasətin nəticəsidir. Bu cür addımların Dağlıq Qarabağ münaqişəsinin nizamlanması vasitəçisi kimi Fransanın tərəfsiz rolunu şübhə altına salması, həmçinin Azərbaycan-Fransa dostluq münasibətlərinə xələl gətirməsi dəfələrlə Fransa tərəfinə bəyan edilib.



Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya səfərini və Birinci vitse-Prezident Mehriban Əliyevanın istər mədəni, istərsə də siyasi xarakterli görüşlərini də vurğulamaq zəruridir. Keçirilən görüşlərdə və tədbirlərdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu vurğulanıb.

Azərbaycan tərəfindən aparılan uğurlu xarici siyasət artıq öz bəhrəsini verməyə başlayıb. Bu cür məsələlər qanun səviyyəsinə qalxdıqda aydın olur ki, bunlar istər ölkənin daxili qanunvericiliyinə, istərsə də beynəlxalq hüququn fundamental prinsiplərinə ziddir. Fransa məhkəməsinin bu qərarı presedent yaradacaq və Azərbaycanın işğal olunmuş əraziləri ilə əlaqədar digər qanunsuz addımların da qarşısını alacaq.

Qeyd etmək lazımdır ki, ermənilər Azərbaycana qarşı yüz ildən artıqdır təbliğat aparırlar. Xüsusilə, XX əsrin sonundan Ermənistan anti-Azərbaycan fəaliyyətini genişləndirib. Azərbaycan müstəqilliyini bərpa etdiyi ərəfədə və ondan sonra Ermənistanın hərbi təcavüzü ilə üzləşdi və torpaqlarımız işğal altına düşdü. Həmin dövrlərdə ölkə çətin vəziyyətdə idi, ordu formalaşmamışdı, hansı istiqamətdə addımlar atılacağı bilinmirdi. Ölkədə sabitlik yox idi, xaos, hakimiyyətsizlik hökm sürürdü. Son zamanlar isə ölkəmizin iqtisadi və hərbi gücü artıb, həmçinin beynəlxalq aləmdə də nüfuzumuz xeyli dərəcədə yüksəlib. Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini Azərbaycan formalaşdırır. Ermənilər bütün mühüm qlobal layihələrdən təcrid olunublar. Hazırda Azərbaycanla Ermənistanı müqayisə etmək gülüncdür. Müxtəlif vaxtlarda erməni lobbisinin təsiri altında olan bir sıra anti-Azərbaycan dairələrin milli maraqlarımıza zidd olaraq ölkəmizlə, eləcə də işğal olunmuş ərazilərimizlə bağlı qəbul edilmiş qərarlar hazırda kağız parçasından başqa bir şey deyil. Bir zaman gələcək bu "sənədlər" Ermənistanın özünə qarşı işləyəcək. Biz artıq ermənilərin anti-Azərbaycan kampaniyalarını ciddi şəkildə ifşa etməyə başlamışıq. Azərbaycan tərəfindən aparılan siyasətin nəticəsi olaraq qanunsuz sənədlər ləğv edilir. İnanırıq ki, bu, Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüququn prinsiplərinə qarşı qanunsuz addımların da qarşısını alacaq. Biz apardığımız mübarizədə mütləq uğurlu nəticələr əldə edəcəyik. Çünki Ermənistandan fərqli olaraq bizim mübarizəmiz tarixi həqiqət və ədalət üzərində qurulub.

# Radikalların birlik sevdası

## Yaxud "suda boğulan saman çöpündən yapışar"



Bütün fəaliyyətləri boyu ölkəmizin hər bir uğuruna qara eynəkdən baxmağa adətkar olan dağıdıcı ünsürlərin köhnə vərdişlərinə aludəçilikləri atdıqları hər addımda özünü qabarıq şəkildə büruzə verir. Təbii ki, onların köhnə düşüncələrlə yaşamaları şəxsi maraqlarının girovuna çevrildikləri üçün xarici dairələrdən asılılıqlarından qaynaqlanır. Xarici sifariş əsasında formalaşan "birlik"lər, cızılan "yeni-yeni" ssenarilər şəxsi ambisiyalara xidmət etdiyindən aydın məsələdir ki, dövlətin, xalqın mənafeyi, milli maraqlar arxa plana keçəcək, hər bir uğur qara rəngdə ictimaiyyətə təqdim olunacaq. Amma bir əsas məqamı unudurlar ki, özləri xalqı yalan vədlərinə inandırıb, hakimiyyəti bir illik ələ keçirdikləri dövrün hissləri ilə yaşasalar da, xalq həmin dövrdəki xalq deyil, hadisələrə obyektiv dəyər verməyi çox yaxşı bacarır. Hər halda dağıdıcılar ictimai fikirdə özləri barədə formalaşdırdıqları xəyalpərəstlər imicinin hansı səbəbdən yarandığının da fərqindədirlər.

Bu gün müxalif düşərgədə cərəyan edən proseslərə diqqət yetirsək, ənənə sadiqliyinin bir tərkib hissəsi kimi yeni birliyin yaradılması ətrafında müzakirələrin aparıldığı diqqəti çəkir. AMİP, AXP və BAP-ın AMİP-in qərargahında bir araya gəlib gizli danışıqlar aparmaları düşərgənin digər təmsilçilərində bir çaşqınlıq yaradıb. Görüş iştirakçılarının maraqlı açıqlamaları bu çaşqınlığı şərtləndirən səbəblərə də aydınlıq gətirir. Belə ki, "Biz ölkədə vəziyyəti dəyişmək istəyirik" söyləyən AXP sədri Pənah Hüseyn bildirib ki, hakimiyyətdən islahatlara başlamaq üçün gələn mesajlara etirazları olmasa da, amma həyata keçirilənləri hələ islahat hesab etmirlər. Pənahların belə ikrah doğuran açıqlamaları bizləri Azərbaycanın bu gün iqtisadi inkişafın hansı səviyyəsində olduğunu bir daha şərh etmək məcburiyyətində qoyur. "İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır" söyləyən dövlətimizin başçısı İlham Əliyevin uğurlu və düşünülmüş siyasəti nəticəsində formalaşan yeni iqtisadi və sosial inkişaf modeli pənahların apardığı qərəzli, ən əsası "biz də varıq" prinsiplərinə əsaslı cavabdır. Dünya 2008-ci ildən iqtisadi və maliyyə böhranını yaşayır. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması bu böhrandan az itki ilə çıxan ölkələr sırasında yer almasını şərtləndirdi. Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, xüsusilə Dünya Bankının hesabatlarında 10 ən islahatçı ölkə sırasında yer alması, ölkəmizdə idarəçilik sistemində təkmilləşmənin yol açdığı uğurların miqyasının genişliyi, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın yeni iqtisadi və sosial modelinin formalaşması və beynəlxalq səviyyədə təqdir olunması pənah hüseynlərin həzm edə bilmədiklərindən inkar etdikləri islahatların aydın ifadəsini yaradır.

Müxalifətçiliyi dövlətin, xalqın mənafeyinə zidd addımların atılmasında, ağa qara deməkdə görən bu ünsürlər unudurlar ki, hansı adda, hansı tərkibdə birlik yaratsalar da, onların ümumi mövqe problemləri hər biri qurumun yarandığı andan arxivin küncündə yer almasına çağırış edir. Tarixə nəzər salaq. Müxalif düşərgə SİDSUH, DUBB, DUH, üçlük, dördlük, beşlik adı ilə müxtəlif qurumlar, həmçinin Müsavat-AXCP seçki bloku, "Böyük Azərbaycan" kimi qurumlar yaradılıb. Bu gün onların siyasi meydanda nə adı var, nə də fəaliyyətləri görünür. Sanki öz aralarında tarixin arxivində yerləşmək uğrunda mübarizəyə girişən bu qurumların ardıcılları sırasında "Milli Şura"nın da adı var. Xarici dairələrin sifarişi əsasında yaradılan "Milli Şura"nın fatihəsi çoxdan oxunsa da, təmsilçiləri ona süni yolla nəfəs verməyə çalışır, arada-sırada xarici dayılarının sifarişlərinə uyğun olaraq mitinqlərə can atmaqla varlıqları barədə təsəvvür yaratmaq istəklərini gizlətmirlər. Maraqların toqquşduğu bir düşərgədə vahid yanaşmadan, birlikdən danışmaq qeyri-mümkündür.

Qeyd etdiyimiz kimi, müxalifətin birliyini təcəssüm etdirən xeyli sayda qurumlar yaradılıb. Hər dəfə də yaradıcıları belə açıqlama verirlər ki, son illərdə müxalifətin birliyini əks etdirən belə güclü təşkilat yaranmayıb. Guya ömrü uzun olacaq, həmrəylikləri ilə konstruktiv qanadın təmsilçilərinə "nümunə" olacaqlar. Bu utopik fikirlər maraqlarının toqquşduğu zamana qədər mövcud olur. Elə ki, istəklərinə nail olmurlar, əsl mərəkə də ondan sonra başlayır. 2018-ci il prezident seçkiləri ərəfəsində də belə istəkdə bulunan dağıdıcılar "Baykotçular" adlı "birlik" yaratmaq sevdasına düşdülər. Utopiya gerçəklik olmasa da, bu ünsürlər hər bir fərziyyələrini reallıq kimi qəbul edirlər. Necə ki, pənah hüseynlər bu gün yeni seçki blokunun yaradılmasından bəhs edirlər. Dünənin rəqiblərinin bu gün səmimiyyətdən danışması gülünc olmaqla yanaşı, o ünsürlərin əsl simasını ortaya qoyur. Köhnə ədavət, intriqalar müxalif düşərgənin xarakterik xüsusiyyətləridir. Bir-birlərinə güzəştə getməyi qəbul etməyən dağıdıcı ünsürlərin ölkənin gələcəyini təkbaşına quracaqlarını bildirmələri bizi onlara "utanmasan oynamağa nə var" deyimini xatırlatmaq məcburiyyətində qoyur.

Düşərgə təmsilçilərinin etiraflarında da bu məqam öz əksini tapır ki, dağıdıcıların siyasi birlikləri yalnız görüntü xarakteri daşıyır. Bu ünsürlər düşərgədə mövcud olan boşluqları yalan vədlərlə, xülyalarla doldurmağa çalışsalar da, bunun mümkünsüzlüyü göz qabağındadır. Yeni birlik yaratmaq sevdasına düşən pənahlar yaxşı olar ki, öncə müxalifətçilik anlayışının mahiyyətini dərk etsinlər.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# *Ekspert:* Hər bir dövlətin ictimai nəqliyyatdan pulsuz istifadə məsələsinə öz yanaşması var

Bu gün ictimai nəqliyyatda uşaqlar üçün ödəniş məsələsi bir problemə çevrilib. Xüsusən də marşrut avtobuslarında tez-tez bu məsələ tərəflər arasında mübahisə ilə nəticələnir. Problem ondadır ki, bu gün marşrut avtobuslarında yalnız 6 yaşa qədər olan uşaqlardan pul tələb edilmir. Bu yaşdan yuxarı olan bütün uşaqlardan gediş haqqı alınır. Hətta bir sıra marşrut xətlərində yalnız 5 yaşa qədər olan uşaqlardan gediş haqqı alınmır. Yaşı 5-dən yuxarı olan uşaqlardan gediş haqqı tələb edilir. Məlumat üçün bildirək ki, Bakı Metrosundan yalnız 7 yaşa qədər olan uşaqlar pulsuz istifadə edə bilərlər.

Bir çox ölkələrdə bəzi şəxslərin, o cümlədən uşaqların ictimai nəqliyyatdan istifadə zamanı gediş haqqından azad olunması qaydaları mövcuddur. Bəzi ölkələrdə məktəblilər və tələbələr ictimai nəqliyyatdan pulsuz istifadə edirlər. Məsələn, Baltikyanı respublikalarda orta məktəb uşaqları ictimai nəqliyyatdan pulsuz istifadə edirlər. Bir sıra ölkələrdə isə uşaqlar üçün yaş məhdudiyyəti bizdəki qədər deyil. Rusiyada 10, Fransada 11, Türkiyədə isə 12 yaşa qədər uşaqlar ictimai nəqliyyatdan pulsuz istifadə etmək hüququna malikdirlər.

Azərbaycanda isə müntəzəm avtobus marşrutlarında sərnişin özü ilə ayrıca yer tutmadan, gediş-haqqı ödəmədən 6 yaşa qədər uşaq aparmaq hüququna malikdir. Bu da istər-istəməz müəyyən sosial çətinliklər yaradır. Çünki paytaxtda bir sıra ailələr uşaqlarını yaşadıqları ərazidən kənardakı məktəblərə göndərirlər. Beləliklə, gündəlik olaraq ictimai nəqliyyatdan istifadə etmək zərurəti meydana çıxır ki, bu da ailə büdcəsi üçün əlavə yük yaradır.

Bəs Azərbaycanda ictimai nəqliyyatdan pulsuz istifadə hüququna malik uşaqların yaş kateqoriyası digər ölkələrlə müqayisədə niyə aşağıdır? Uşaqlar üçün gediş haqqı ilə bağlı yaş həddi nə qədər artırılsa, daha məqbul olar?



**Nəqliyyat üzrə ekspert Ərşad Hüseynov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki,** hər bir dövlətin ictimai nəqliyyatdan pulsuz istifadə məsələsinə öz yanaşması var: "Bir sıra ölkələrdə bu, müxtəlif sistemlər üzrə həyata keçirilir. Elə ölkələr var ki, orada ictimai nəqliyyatı dövlət idarə edir. Elə ölkələr də var ki, bu, özəl sektorun nəzarətindədir. Bəzi ölkələrdə isə bu, qarışıq sistemdir. Pulsuz gediş haqqı ilə bağlı məsələlər gündəmə gələndə həm onun sosial aspektləri, həm də iqtisadi səmərəliliyi nəzərdən keçirilir. Hesablanılır ki, bu cür qərarlar sərnişindaşıma ilə məşğul olan şirkətin mənafeyinə nə dərəcədə uyğundur. Xüsusən də nəqliyyatdan pulsuz istifadə edən sərnişinlərin sayının ümumi sərnişindaşımada payı nəzərə alınır. Tutaq ki, sərnişinlərin 35 faizi pulsuz istifadə hüququna malik 12 yaşa qədər uşaqlardırsa, o zaman bu, sərnişindaşıma ilə məşğul olan nəqliyyat şirkətinə böyük zərər vura bilər. Ona görə də yaş nisbəti elə qoyulur ki, balans pozulmasın".

Ə.Hüseynovun sözlərinə görə, Azərbaycanda uşaqların sərnişindaşımada istifadə faizi müəyyən olunmalı, ondan sonra yaşla bağlı qərar verilməlidir: "Hazırda bununla bağlı hansısa statistik rəqəm yoxdur. Nəinki uşaqların, ümumiyyətlə, ictimai nəqliyyatdan istifadə edən əhalinin yaş qrupları ilə bağlı bölgü yoxdur. O baxımdan konkret rəqəm deməkdə çətinlik çəkirəm. Nəqliyyatdan uşaqların pulsuz istifadə etməsi ilə bağlı yaş həddi artırılarsa, o zaman daşıma şirkətlərinə subsidiyalar verilməlidir. Təbii ki, yenə də sərnişindaşımadakı nisbətə baxmaq lazımdır".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Erməni gənclər hökumətə qarşı təşkilatlanır: ilk hədəf Paşinyandır



Ermənistanda hər ötən gün ictimai-siyasi vəziyyət daha xaotik hal alır. Hökumət müxalifət qüvvələri ilə yanaşı, sadə vətəndaşlara qarşı da təzyiqləri artırıb. Ermənistanın baş naziri Nikol Paşinyan etiraz aksiyaları keçirən vətəndaşlara müraciət edib. Onun sözlərinə görə, xalqın etimadını qazanmış hökumətə qarşı çıxmaq sabotajdır. "Bu andan bütün icazəsiz etiraz aksiyalarının dayandırılmasını tələb edirəm. Hökumətin bu çağırışına adekvat cavab verilməməsi mənim üçün anlaşılmazdır", - deyə Paşinyan bildirib. Vətəndaşların isə aksiyaları dayandırmaq fikri yoxdur. Ermənistan mətbuatı yazır ki, yeni baş nazir onların etibarını doğrultmadı. Bu şəxs hakimiyyətə gələn andan səhv qərarlar verməklə məşğuldur. Hətta Paşinyan Serj Sarkisyan klanına satılmaqda ittiham olunur.

Paşinyanın yürütdüyü daxili və xarici siyasəti dəstəkləməyən gənclər "Facebook" "da "Adekvad" adlı səhifə yaradıb, orada qrup şəklində birləşərək eyniadlı siyasi partiya formalaşdırıblar. "armenews.com" saytı xəbər verir ki, sözügedən qrup Paşinyanın apardığı siyasətin tamamilə əleyhinə olan perspektivli, milliyyətçi və mühafizəkar gənclərdən ibarətdir. Hətta bu təşkilatın tərkibində ABŞ-da təhsil almış erməni gənclər də yer alıb. Onlar Paşinyan hakimiyyətini Ermənistan və onun dəyərləri üçün təhlükə hesab edirlər. "Adekvad" təşkilatının bu günlərdə İrəvanda baş tutan etiraz aksiyası zamanı etirazçılar mərkəzi küçələrdəki asfalta "Yalançı Nikol" qrafitiləri yerləşdiriblər. Təşkilat aksiyanı "Yalanın doğuluşu" adlandırdığını bildirib. Qeyd edək ki, 2018-ci ildə yaradılmış bu "Facebook" qrupunun üzvlərinin sayı 27 mindən çoxdur. Onlar artıq may ayının 27-dən partiyanın yaradılmasını şərtləndirən amilləri, bir sözlə, niyyətlərini açıqlayıblar. Həmin bəyanatda deyilir: "Ermənistandakı hazırkı siyasi sistem axsayır və bu sistem Ermənistanın üzləşdiyi problemləri həll etmək iqtidarında deyil. Biz ölkənin siyasi arenasındakı tanınmış simalara çağırış edirik ki, ölkəmiz üzləşdiyi bu vəziyyətdən ciddi ziyan çəkəcək. " Ermənistan alınmaz qaladır" kimi fikirlər uydurmadan başqa bir şey deyil. Vəziyyət bu cür davam edərsə, Ermənistan tarixin mistikasında əriyib yox ola bilər. Düzdür, əsas hədəfimiz Paşinyandır. Çünki o, Ermənistana mənfi təsir edə bilən bütün amillərə qapı açıb. Sonrakı hədəflərimiz erməni homoseksuallar və maliyyəçi Corc Sorosdur".

Xatırladaq ki, bir neçə gün öncə Ermənistanda polislə Soros fonduna etiraz edənlər arasında qarşıdurma yaranıb. Etirazçılar onların binaya buraxılmasını tələb etsə də, polis onların bu tələbini yerinə yetirməkdən imtina edib. Etirazçılar rus və ingilis dillərində "Stop Soros" yazılan plakatlar saxlayıb və onların fikrincə Ermənistanda fondun maraqlarını irəli çəkən şəxslərin fotolarını tutublar. "VETO" hərəkatının rəhbəri, Ermənistan polisinin sabiq rəhbərinin müşaviri Narek Malyan bəyan edib ki, ofisin işçiləri və onunla əməkdaşlıq edənlər xarici agentlərdir və onların fəaliyyətinin qarşısını almaq lazımdır.

Polis etirazçıların ofisin binasına yaxınlaşmasının qarşısını alıb. Etirazçılar onların binaya buraxılmasını tələb etsə də, polis onların bu tələbini yerinə yetirməkdən imtina edib. Buna cavab olaraq Malyan bir neçə nəfərlə birgə polis mühasirəsini yarmağa çalışıb. Bir neçə dəqiqə davam edən qarşıdurmadan sonra erməni fəallar geri çəkilib. Bundan sonra Malyan siyasi qüvvələri Soros fondu qarşısında toplaşmağa çağırıb.

**Sevinc Azadi,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**Müxtəlif ölçülü sinklənmiş metal vərəqələrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25083-19)-LOT2 üzrə müraciətlərin son tarixini, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* 1. Müsabiqədə iştirak haqqında müraciət;
* 2. İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* 3. Müsabiqə təklifinin bank təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 27.06.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
* 2-ci lot üzrə 531 (ƏDV-ilə)
* manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalınan malların tədarükünə görə satınalma müqaviləsi verilmiş sifarişə əsasən (hissə-hissə) lot 2 üçün 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Müsabiqə üzrə tələb olunan bank təminatları:**

*1. İddiaçının LOT2 üçün 23000 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*

*2. Bank təminatlarının əsli ayrı zərfdə müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*3. Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.*

*4. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın V paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*5. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.*

*Qeyd: Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 50% avans ödənişi yerinə yetirilməsi nəzərdə tutulur.*

*6. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.*

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 4-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Əmiraslanov Emil.
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-07-67
Faks nömrəsi: +994 12 521-07-67
Elektron ünvan: Emil.Amiraslanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 27.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neft Kəmərləri İdarəsi

**Neft Kəmərləri İdarəsinin balansında olan Neftin Miqdarının Ölçmə Sistemlərinə texniki xidmət işləri”nin satınalınması üzrə (13003TX-19) AÇIQ MÜSABIQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 17.30-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 (iki) (tələb olunan surətlərin sayı) surəti olmaqla 08 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 10.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 156 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsi 30.12.2019-cu il ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1025, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti
Bina 28, 2-ci mərtəbə
Əlaqələndirici şəxslər:
Babayev Nicat
Baş metroloq, Avtomatlaşdırma, standartlaşdırma və metrologiya şöbəsinin rəisi
(050) 841-30-55
Nicat.Babayev@socar.az
İsaqov Məhəmməd
Əsaslı tikinti və təmirə texniki nəzarət şöbəsinin rəis müavini
012-521-00-00 (13-053)
mehemmed.isaqov@socar.az

Təklif və şikayətləriniz olduğu hallarda bu elektron ünvana müraciət edə bilərsiniz:
isa.dadashli@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11.00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 102 (7357) / Şənbə, 8 iyun 2019-cu il

# Albalı şirəsinin faydaları

Dadlı meyvə olan albalı güclü antioksidant mənbəyi olaraq faydaları ilə hər kəsi təəccübləndirəcək. Yuxu problemlərindən oynaq ağrılarına qədər bir çox faydası olan albalı şirəsi istehlakı, bədəninizin təzəliyini və canlılığını təmin edəcək.

**Diabet xəstələri üçün faydalıdır**

Qlisemik indeksi çox aşağı olan albalı suyu diabet xəstələri tərəfindən istifadə edilə bilər. Diabet xəstəliyi olan insanlar üçün bir çox meyvədən daha faydalıdır.

**Keyfiyyətli yuxu ilə təmin edir**

Gecə yatmağa çalışarkən yataqda dönüb durursunuzsa, oyandıqdan sonra hər yeməkdən 30 dəqiqə sonra albalı şirəsi için. Albalı, melatonin hormonunun böyük qaynağıdır.

**Alzheimer xəstəliyinə qarşı qoruyur**

Zəngin antioksidant tərkibi sayəsində albalı şirəsi yaddaşı gücləndirir. Beləliklə, müntəzəm olaraq içilən zaman sizi alzheimer xəstəliyindən qoruyur.

**Dərinin qırışmasının qarşısını alır**

Albalı tərkibində ən çox antioksidant olan meyvələrdən biridir. Antioksidantlar bədənin sərbəst radikalları ilə mübarizə aparır və dərinin yaşlanmasını gecikdirirlər.



Gündə 1 stəkan albalı şirəsi içmək, yaşlanmanın qarşısını alır. Bundan əlavə, albalı suyu digər dəri xəstəliklərinin müalicəsində istifadə edilə bilər.

**Ürək sağlamlığı üçün faydalıdır**

Albalı ürək ritmini tənzimləmək və yüksək təzyiqi azaltmaq üçün bol miqdarda kalium ehtiva edir. Bundan əlavə, albalı ürək sağlamlığı üçün çox faydalıdır.

**Əzələ ağrıları üçün çox faydalıdır**

Bir stəkan albalı şirəsi içmək əzələ ağrısını xeyli azalda bilər. Əgər məşqdən əvvəl və ya sonra albalı şirəsi içsəniz, əzələləriniz daha az ağrıyacaq.

**İnfarkt riskini azaldır**

Albalıya qırmızı rəng verən maddə yüksək xolesterol və qan təzyiqini balanslaşdırır, bununla da infarkt riskini azaldır.

# İşdə necə pozitiv ola bilərik?

**İşə tez gəlin**

İşə tez gəlmək və gün ərzində edəcəklərinizi əvvəldən planlaşdırmaq pozitivliyiniz üçün 2-ci səbəbdir.

**Tez fasilə verməyin**

Nə vaxt fasilə verəcəyinizə və bunun nə qədər olacağına siz qərar verin.

**Fasilə verin**

Dayanmadan, aramsız işləməyin. Arada fasilələr verin. Bu, sizi daha yaxşı motivasiya edəcək.

**Vaxtdan səmərəli istifadə edin**

İş vaxtından səmərəli istifadə etmək həm işinizi daha asan bitirməyinizi, həm də pozitiv olmağınızı təmin edəcək. Planlara əhəmiyyət verin. Gününüzü özünüz təyin edin.

**İclaslar**

Qatıldığınız iclaslardan məmnun ayrılmaq gün ərzində pozitiv olmağınıza kömək edəcək.

**Sağlam yaşayın**

Sağlam həyat tərzi nəinki işdə, ömür boyu müsbət həyat sürməyinizə kömək edəcək.

**Tələsməyin**

Bir layihəni tez çatdırmaq üçün tələsməyin. İş vaxtı mütləq şəkildə nikbin olun.



**İnsanlara dəstək olun**

Uğurlarınızı iş yoldaşlarınız ilə bölüşün və onlara dəstək olun.

**Qərəzli olmayın**

İş yerində mənfi enerjili işçilərlə qərəzli olmayın.

**Kömək istəyin**

Kömək istəməkdən qorxmayın. Birgə layihələr, hədəfinizə daha tez çatmağınıza kömək edəcək.

**Neytral olun**

Ofis daxili müzakirələrdə neytral olun.

**Kiçik detallara fikir verməyin**

İş zamanı kiçik detalların motivasiyanızı pozmasına icazə verməyin.

**Tənqidləri nəzərə alın**

Tənqidlərə normal yanaşın.

**Boş günlərinizdən yaxşı istifadə edin**

Həftəsonları və tətillərdə sizi xoşbəxt edəcək fəaliyyətlərlə məşğul olun.

**Yeniliklərə açıq olun**

Dəyişən şərtlərə və yeniliklərə açıq olun.

**Diqqətinizi dağıtmayın**

Bir iş üzərində işləyəndə sosial şəbəkələrdəki hesablarınıza baxmayın. Bu, diqqətinizi dağıda bilər.

✍ **Könül Əliyeva, *“İki sahil”***

# Avtomobili olmayan daha sağlamdır



Avstraliya alimləri araşdırmalar nəticəsində belə nəticəyə gəliblər ki, avtomobili olmayan insanlar avtomobil sürən insanlarla müqayisədə daha sağlamdır.

Araşdırmada yaşı 34-dən 65-ə qədər 2000-dən artıq şəxs iştirak edib. Araşdırma göstərib ki, gün ərzində 1 saat avtomobil sürən insanlar avtomobil sürməyən insanlarla müqayisədə ən azı 2 kq ağırdır və onların bel çevrəsi təxminən 1,5 sm daha çoxdur. Beləliklə, gün ərzində sükan arxasında çox vaxt keçirən insanlarda piylənmə riski artır.

Piylənmə isə ürək-damar sistemi xəstəlikləri, diabet və bir çox digər xəstəliklərin riskini artırır. Alimlər gün ərzində sükan arxasında az vaxt keçirməyi, onun əvəzinə piyada gəzməyi və ictimai nəqliyyatdan istiafdə etməyi tövsiyə edirlər.

✍ **Röya Rasimqızı, *“İki sahil”***

## ELAN:

***11 dekabr 1998-ci ildə Mətbuat və İnformasiya Nazirliyi tərəfindən “Qafqazın Stomatoloji Yenilikləri” elmi-praktik jurnalına verilən 14 №-li şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi SOCAR-ın yataqların işlənməsi üzrə vitse-prezidentinin müavini Balamirzə Ağarəhimova, atası

**Ağarəhim Ağarəhimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi “SOCAR Upstream” MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi “SOCAR Upstream” MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi SOCAR-ın Yataqların işlənməsi üzrə vitse-prezidentinin müavini Balamirzə Ağarəhimova, atası

**Ağarəhim Ağarəhimovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi “SOCAR Upstream” MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vüqar Rəhimzadə Adil Cəmilə, oğlu

**Orxanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vüqar Rəhimzadə “SOCAR Upstream” MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın “Azneft” İB-nin Ə.C.Əmirov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Yataqların işlənməsi üzrə vitse-prezidentinin müavini Balamirzə Ağarəhimova, atası

**Ağarəhim Ağarəhimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“EKOL Mühəndislik Xidmətləri” QSC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Yataqların işlənməsi üzrə vitse-prezidentinin müavini Balamirzə Ağarəhimova, atası

**Ağarəhim Ağarəhimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə *“AZƏRTAC”, “OLAYLAR”, “Azadİnform”, “TREND”, SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 08.06.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8215**
*İndeks:* **0151**, *Sifariş:* **1868**